HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 48-49 (891) ▪ 13 dekabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir. Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.**



Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın dövlət himni səsləndirilib. Dövlətimizin başçısı və ailə üzvləri ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyət, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

> “Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

## Dövlətimizin başçısı regionlara səfəri çərçivəsində Quba rayonunda olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonuna səfər edib. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva əvvəlcə ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.**



Səfər çərçivəsində Prezident İlham Əliyev Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-202 kilometrlik hissəsində tikiləcək yeni yolun təməlqoyma mərasimində iştirak edib. Bildirilib ki, layihə çərçivəsində Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən başlayaraq, Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən Gəndob yaşayış məntəqəsinə qədər 97 kilometr uzunluğunda, oradan da Rusiya Federasiyası sərhədinə doğru 22 kilometr yeni yolun tikintisi nəzərdə tutulur. Beləliklə, dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 119 kilometr, eni 15 metr olacaq. 119-cu kilometrdən sərhədə doğru 38 kilometr uzunluğunda yeni yolun tikintisi isə davam edir. Bu işlər tam başa çatdıqdan sonra yolun ümumi uzunluğu 157 kilometr təşkil edəcək.

Sonra dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba «ASAN həyat» Kompleksinin açılışında iştirak ediblər. Bildirilib ki, bu kompleks Dövlət Agentliyinin sayca 12-ci mərkəzidir. Şəhərin Heydər Əliyev prospektində yerləşən, öz möhtəşəmliyi ilə seçilən Quba regional «ASAN həyat» Kompleksinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Tikintisinə bu ilin əvvəlində başlanılan kompleks dördmərtəbəli inzibati binadan və 6 ictimai iaşə obyektindən ibarətdir. Burada «ASAN xidmət» Mərkəzi, «ASAN təlim» Mərkəzi, «ABAD» Mərkəzi, «ABAD» Məktəbi yaradılıb. Dövlətimizin başçısı mərkəzlə tanış olub. Kompleksin «ASAN xidmət» Mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcək. Mərkəzdə çalışacaq əməkdaşların sayı 170, könüllülərin sayı isə 45 nəfərdir. Quba «ASAN xidmət» Mərkəzi Quba, Qusar, Xaçmaz və Şabran rayonları ərazisində qeydiyyatda olan, ümumilikdə, 500 minə yaxın vətəndaşa xidmət göstərəcək. Mərkəzdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə yaradılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin «ABAD» Mərkəzində də olublar. Məlumat verilib ki, Mərkəzin əsas məqsədi şimal regionunda yeni ailə brendləri yaratmaq, ailə təsərrüfatlarının məhsullarının daxili və xarici bazarda satışını təşkil etmək, özünüməşğulluq proqramının icrasına dəstək göstərməkdir.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba Bayraq Muzeyinin açılışında iştirak ediblər. İnşasına 2017-ci ilin martında başlanılan muzeyin binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Sərgi zalında ümumilikdə 6 bölmə yaradılıb. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi, xanlıqların bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Muzeydə nümayiş etdirilən Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədlər, Azərbaycanın SSR və müstəqillik dövrlərində qəbul olunmuş konstitusiyaları, gerblər, bayraqlar, poçt markaları, orden və medallar da böyük maraqla qarşılanır.

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışında iştirak ediblər. Bildirilib ki, «Azərxalça» ASC-nin Quba filialının binasının ümumi sahəsi 1300 kvadratmetrdir. Burada 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışacaq. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı müxtəlif ölçülü 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Buradakı toxucular Quba şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları «Azərxalça» ASC-nin tədris sertifikatını alacaqlar. Filialın xalça-satış salonunda isə «Azərxalça» ASC-də toxunan xalça və xalça məmulatlarının sərgisi və satışı həyata keçiriləcək.

Sonra dövlətimizin başçısı filialın xalçaçıları ilə görüşüb söhbət edib.

Prezident İlham Əliyev Quba rayonunun əsaslı şəkildə yenidən qurulan Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar avtomobil yollarının açılışında da iştirak edib.

## Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatı

Dekabrın 9-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Türkiyə Prezidenti dövlətimizin başçısını İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı İstanbulda keçiriləcək fövqəladə zirvə toplantısına dəvət edib. Dövlətimizin başçısı dəvəti minnətdarlıqla qəbul edib.

Hər iki prezident ABŞ Prezidenti Donald Trampın Qüdsün İsrail Dövlətinin paytaxtı kimi tanınması və səfirliyin bu şəhərə köçürülməsi ilə bağlı qərarının çox yanlış olduğunu vurğulayaraq bildiriblər ki, bu addımlar beynəlxalq hüquqa ziddir və Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər.

Eyni zamanda, dövlət başçıları Türkiyə və Azərbaycanın İslam həmrəyliyinə töhfə verdiklərini qeyd edərək müsəlman aləminin maraqlarını bundan sonra da müdafiə edəcəklərini bildiriblər.

Prezident İlham Əliyev Türkiyə Prezidentinin növbəti dəfə İslam həmrəyliyi işinə dəstəklə bağlı öz üzərinə götürdüyü missiyaya görə Azərbaycan xalqı adından minnətdarlığını ifadə edib.

## Parlamentlərarası əməkdaşlıq uğurla davam etdirilir

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 11-də Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsində rolu qeyd edilib. Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi ilə Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin birgə komissiyasının Bakıda keçirilən iclasının bu əməkdaşlığa verdiyi töhfəni vurğulayan dövlətimizin başçısı parlamentlər səviyyəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini bildirib.

Leonid Kalaşnikov Azərbaycana gəldiyi ilk gündən Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu söyləyib. Dekabrın 12-də ulu öndər Heydər Əliyevin anım gününün qeyd olunacağını vurğulayan Leonid Kalaşnikov bildirib ki, bu böyük şəxsiyyətin xatirəsi Rusiyada da bu günə kimi dərin hörmətlə yad edilir.

## Əlaqələrin genişlənməsi üçün yaxşı imkanlar var

Dekabrın 8-də Prezident İlham Əliyev Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abbas Mustafa Əhməd Abdallayın etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu qeyd edərək əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğulayıb, ümidvar olduğunu bildirib ki, yeni səfir əməkdaşlığımızın müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, investisiya, humanitar sahələrdə daha da möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcək.

Abbas Mustafa Əhməd Abdallay qeyd edib ki, Sudan Respublikasının Prezidenti ona dost Azərbaycanla iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylər göstərilməsi ilə bağlı tapşırıq verib. Dağlıq Qarabağ münaqişəsinə toxunan səfir bildirib ki, bu məsələ ilə bağlı Sudan Respublikasının mövqeyi dəyişməzdir və Azərbaycanın işğal altındakı bütün torpaqları azad olunmalı və ərazi bütövlüyü bərpa edilməlidir.

### BU NÖMRƏMİZDƏ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCANIN MEMARIDIR 2

AZƏRBAYCANDA VERGİ YÜKÜ DÜNYA ÜZRƏ ORTA GÖSTƏRİCİDƏN AŞAĞIDIR 3

SAHİBKARLAR ÜÇÜN MƏNŞƏ SERTİFİKATININ ALINMASI PROSEDURU SADƏLƏŞDİRİLİB 4

PEŞƏ STANDARTLARI İŞÇİ QÜVVƏSİNİN İNKİŞAFINA XİDMƏT EDİR 5

# Vergi xidməti əməkdaşları Ulu Öndərin əziz xatirəsini yad ediblər



Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyevin vəfatından on dörd il keçdi. Ötən illər ərzində bu görkəmli şəxsiyyətin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilmişdir. İnsanlar burada xalqımızı və ölkəmizi dünyaya tanıtmış Böyük Azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər. Paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanı ziyarət edərək, Ulu Öndəri yad edir, məzarı önünə əklillər qoyur, gül dəstələri düzürlər.

Ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü günü - dekabrın 12-də Vergilər Nazirliyinin kollektivi də, hər il olduğu kimi, Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edib. Dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad olunub, məzarı önünə gül-çiçək dəstələri düzülüb.

# OECD Azərbaycanda sahibkarlığın inkişafına dəstək göstərir

***İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Azərbaycanda sahibkarlığın inkişafına hüquqi və texniki yardımını artırmaq niyyətindədir. Təşkilatın qlobal münasibətlər üzrə layihə rəhbəri Bill Tompson bildirib ki, Avrasiya Rəqabətqabiliyyətlilik Proqramı çərçivəsində «Azərbaycanda kiçik və orta sahibkarlığın rəqabətqabiliyyətliliyinin artırılması ilə bağlı islahatların və iqtisadi diversifikasiyanın dəstəklənməsi» layihəsinin icrasına 2017-ci ildən başlanıb.***

Layihəyə əsasən, investisiyanın təşviqi və asanlaşdırılması, xarici investorlarla əlaqənin genişləndirilməsi, kiçik və orta sahibkarlıq (KOS) üzrə biznes strategiyaları və fəaliyyət planlarının monitorinqinin aparılması və qiymətləndirilməsi sahəsində beynəlxalq təcrübənin mənimsənilməsi planlaşdırılır. Bununla yanaşı, iqtisadi islahatların səmərəliliyinin monitorinqi, biznes sektorunda həyata keçirilən tədbirlərin qiymətləndirilməsi və təhlili də aparılacaq. Təşkilat Azərbaycanda sahibkarlığın inkişafı üçün tətbiq olunan layihələrin təhlili əsasında icmal hazırlamağı planlaşdırır. İcmalın hazırlanmasında yerli dövlət və özəl sektor nümayəndələrinin iştirakı nəzərdə tutulub.

*Təşkilat Azərbaycanda yerli dövlət və özəl sektor nümayəndələrinin iştirakı ilə sahibkarlığın inkişafı üçün tətbiq olunan layihələrin təhlili əsasında icmal hazırlamağı planlaşdırır*

Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi Jeron Vilyams OECD ilə ölkəmiz arasında əməkdaşlığın biznes fəaliyyətinin genişlənməsinə və rəqabətliliyin artmasına mühüm fayda verəcəyinə əmin olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycan hökuməti «bir pəncərə» prinsipini tətbiq edib, «E-hökumət» portalı çərçivəsində sahibkarların e-xidmətlərə çıxışı təmin olunub, biznes mühiti ilə əlaqədar islahatlar aparılıb. İnnovasiyaların tətbiqi yaxşılaşıb, kiçik və orta müəssisələrin potensialının formalaşdırılması üçün institusional dəstək artırılıb. Lisenziyalaşdırmanın asanlaşdırılması, sahibkarlıq fəaliyyəti ilə bağlı hüquqi prosedurların sadələşdirilməsi KOS üçün yaxşı imkanlar açır. Azərbaycanda yeni qurulan Rəqəmsal Ticarət Qovşağı da biznesin ixrac imkanlarının genişlənməsi, xarici sərmayədarların öz ölkəsində olmaqla rahat və asan şəkildə qeydiyyatdan keçməsi üçün innovativ layihələrdəndir. «Azexport» portalının fəaliyyəti sahibkarlar arasında qarşılıqlı ticarətin qurulmasına, mal mübadiləsinin həyata keçirilməsinə ciddi təsir göstərir. Aparılan islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin güclənməsi, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində ciddi irəliləyişlərlə müşayiət olunur.

J.Vilyams qeyd edib ki, iqtisadiyyatın şaxələndirilməsi, KOS sektoru ilə bağlı strateji yanaşmanın müasir tələblər əsasında qurulması, maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması, kapital bazarı da daxil olmaqla, alternativ maliyyə mənbələrinin və bank kreditlərininin əldə edilməsinin təşviqi məqsədilə aparıcı maliyyə infrastrukturuna hələ də ehtiyac var. Nəhayət, KOS üçün mövcud dəstək tədbirləri strukturlu monitorinq və qiymətləndirmə vasitəsilə gücləndirilə, dəstək tədbirləri genişləndirilə bilər: məsələn, ixracın maliyyələşdirilməsi alətləri faydalı əlavə kimi çıxış edə bilər.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mövzu ilə bağlı açıqlamasında qeyd edib ki, «Azərbaycan Respublikasında KOS səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə nəzərdə tutulan prioritetlərdən biri biznes və investisiya mühitinin yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqidir. OECD ilə birgə həyata keçirilən yeni layihə də həmin məqsədə xidmət edir. Layihə üzrə nəzərdə tutulmuş strateji hədəflərə uyğun olaraq biznes tərəfdaşlığının möhkəmləndirilməsi, KOS subyektlərinin beynəlxalq bazarlara çıxışının təşviqi, alternativ maliyyə alətləri,qadın sahibkarlığın inkişaf etdirilməsi sahəsində faydalı əməkdaşlığın qurulması da iqtisadi həyatın aktual məsələlərindəndir.

**ELBRUS**

# Vergi maarifçiliyi davam etdirilir

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti tərəfindən hazırlanmış «Vergi qanunvericiliyinin tətbiqi üzrə maarifləndirmə, məlumatlandırma və təbliğat işlərinin aparılmasına dair» Tədbirlər Planının mühüm istiqamətlərindən biri tədris müəssisələrində vergi maarifçiliyinin genişləndirilməsi ilə bağlıdır.

Plana əsasən, Gəncə şəhər 14 nömrəli orta məktəbin yuxarı sinif şagirdləri, «Vergi dostları» klubunun üzvləri və müəllimlər 12 saylı Ərazi Vergilər Departamentində olublar. Görüş iştirakçıları departamentin iş fəaliyyəti, vergi orqanı əməkdaşları üçün yaradılmış şərait və imkanlar, onlar tərəfindən görülən işlər və vergi ödəyicilərinə göstərilən xidmətlərlə əyani tanış olublar.

# Neft Fonduna daxil olan vəsaitin həcmi artıb

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İctimaiyyətlə əlaqələr departamentinin yaydığı məlumatda bildirilir ki, 2017-ci ilin yanvar-oktyabr aylarında mənfəət neftinin və qazın satışından Fonda 9 milyard 19,3 milyon manat və ya 5 milyard 227 milyon ABŞ dolları məbləğində vəsait daxil olub. Müqayisə üçün qeyd edək ki, 2016-cı ildə mənfəət neftinin və qazın satışından əldə edilən gəlir 8 milyard 320 milyon manat və ya 5 milyard 189,1 milyon ABŞ dolları məbləğində olmuşdu. Keçən il mənfəət neftinin və qazın satışı üzrə daxilolmaların 98,3 faizi «Azəri-Çıraq-Günəşli» (AÇG) və «Şahdəniz» yataqlarının payına düşmüşdü: AÇG yatağı üzrə il ərzində 5 milyard 100,23 milyon ABŞ dolları, «Şahdəniz» yatağından hasil edilmiş mənfəət qazının satışından təqribən 63,98 milyon dollar və digər yataqlar üzrə isə 24,9 milyon dollar həcmində vəsait daxil olub.

Onu da qeyd edək ki, Dövlət Neft Fondunun cari ilin yanvar-oktyabr aylarında dövlət büdcəsinə transferti 4 milyard 801 milyon manat, Mərkəzi Banka isə 2 milyard 448,3 milyon manat təşkil edib. 2016-cı ildə dövlət büdcəsinin gəlirlərinin 7 milyard 615 milyon manatını (43,5 faizini) Fondun transfertləri təşkil etmişdi. 2003-2016-cı illərdə isə ARDNF tərəfindən dövlət büdcəsinə ümumilikdə 71,5 milyard manat vəsait transfert olunub.

# Ümummilli lider Heydər Əliyev müasir Azərbaycanın memarıdır



Tarixən zamanın nəbzini tutmağı, hadisələrə obyektiv qiymət verməyi bacaran liderlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından çıxarır, milli xilaskara çevrilirlər. Millətin taleyində silinməz izlər buraxmış, onun gələcək yolunun müəyyən edilməsində əvəzsiz rol oynamış şəxsiyyətlər həmin millətin tarixinin yaradıcısı kimi unudulmur, tarixlə bərabər yaşayırlar. Türkiyənin tarixində Mustafa Kamal Atatürk, Fransanın tarixində Şarl de Qoll, Hindistanın tarixində Mahatma Qandi, Misirin tarixində Camal Əbdül Nasir, Almaniyanın tarixində Konrad Adenauer, Amerikanın tarixində Corc Vaşinqton varsa və həmin ölkələrin xalqları onları dövlətlərinin xilaskarı sayırlarsa, Azərbaycan xalqı da ümummilli lider Heydər Əliyevi özünün xilaskarı hesab edir və onunla qürur duyur.

Bu baxımdan, Prezident İlham Əliyevin «Heydər Əliyev müasir Azərbaycanın memarıdır» deyimində ifadə etdiyi fikir xalqımız üçün olduqca qiymətli bir tarixi mərhələni ehtiva edir: müasir Azərbaycanın dövlətçilik təfəkkürünün təşəkkülünün və möhkəmlənməsinin yeni tarixi mərhələsi məhz 1969-cu ildən başlayır. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi və iqtisadi proseslər böyük dəyişikliklərə təkan vermişdir. Qısa müddətdə iqtisadiyyat sahəsində nailiyyətlər əldə olunmuş, mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır. O illərdə Heydər Əliyevin idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir. Ulu öndərin 1969-1982-ci illərdə gördüyü işlər sonralar milli dövlətçilik ideyasını hərəkətverici qüvvəyə çevirərək, cəmiyyətin bu ideya ətrafında səfərbər olmasına şərait yaratmışdır.

Heydər Əliyev Azərbaycanın bundan sonrakı yaşam və inkişaf konturlarını, canından çox sevdiyi xalqının gələcək xoşbəxt taleyini müəyyənləşdirdi. Uzaqgörən rəhbər gələcək nəsillərə Azərbaycan adlı möhtəşəm bir abidə ucaltdı. Bu abidənin möhkəmliyi, ucalığı və müqəddəsliyi onu deməyə əsas verir ki, hələ uzun illər, əsrlər ərzində xalqımız qorxusuz, firavan və xoşbəxt bir həyat yaşayacaqdır. Məhz bunun üçün Azərbaycan xalqı, gələcək nəsillər Heydər Əliyev şəxsiyyətinə minnətdar olacaqdır. İnkaredilməz bir həqiqətdir ki, 1969-cu ildən 2003-cü ilədək olan 34 illik bir dövr Heydər Əliyevin rəhbərliyi ilə xalqımızın sosial-iqtisadi tərəqqisi, milli oyanışı, mədəni intibahı, azadlıq hərəkatı mərhələsindən keçərək müstəqillik əldə etməsi, suverenliyini və milli birliyini təmin edərək qorumaq imkanlarına malik olması baxımından əlamətdar tarixi dövr olaraq qəbul edilmişdir. Sözün əsl mənasında, həmin 34 il ümummilli liderimizin parlaq iradəsi və zəngin fəaliyyəti ilə tariximizə «Heydər Əliyev erası» kimi həkk olunmuşdur.

Ümummilli liderimizin Vətəninə, xalqına bağlılığını, fəaliyyətini bütünlüklə millətinin xoşbəxt gələcəyinə həsr etməsini keçmiş sovet rəhbərləri də hər zaman bilir, duyur və hətta bəziləri bunu etiraf etməkdən çəkinmirdilər. Məsələn, keçmiş SSRİ-nin rəhbərlərindən olan N.Baybakov demişdi: «Mən inanmıram ki, Azərbaycanı Heydər Əliyev qədər sevən ikinci bir azərbaycanlı olsun». Bu fikirlər Ulu Öndərin nə qədər böyük, əsl AZƏRBAYCANLI olduğuna sadə bir nümunədir. Bu, Heydər Əliyevin həyat amalını, xalqına, millətinə necə bağlı olduğunu bir daha sübut edir. Əslində, nə o böyük şəxsiyyətin, xalqını canından çox sevən liderin, nə də sözün həqiqi mənasında BÖYÜK OĞUL - HEYDƏR ƏLİYEV kimi dahi lider yetişdirmiş Azərbaycan xalqının belə sübutlara, faktlara ehtiyacı yoxdur. Çünki Azərbaycan xalqı və Heydər Əliyev şəxsiyyəti çoxdan birləşib, birgədir və bəlkə də bir məna daşıyır. «Azərbaycan» qəzetinin 12 dekabr 2017-ci il tarixli sayında ulu öndər Heydər Əliyevə həsr olunmuş yazıya verilən başlıq bu fikri obrazlı və daha aydın ifadə edir: «Azərbaycan deyilir-Heydər Əliyev yazılır, Heydər Əliyev yazılır-Azərbaycan deyilir»...

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa etmiş ölkəmizdə demokratik dövlət quruculuğu və institusional kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasıa dərin əsaslar yaradıb. Ulu Öndərin zəngin siyasi idarəetmə təcrübəsi, milli dövlətçilik ənənələrinə dərindən bələd olması, islahatların mahiyyətini bütün təfərrüatları ilə dərk etməsi və həyata keçirmək qüdrətində olması, praqmatik keyfiyyətləri və digər nadir xüsusiyyətləri müstəqil Azərbaycanın əhatəli inkişaf strategiyasının hazırlanmasına əsaslı baza yaratdı. Ümummilli lider Heydər Əliyev ölkənin yeni makroiqtisadi siyasətinin şaxələrini dərinliklərinə qədər məharətlə tədqiq edərək fundamental iqtisadi model hazırladı. Bu model çoxistiqamətli və uzunmüddətli dinamik inkişafın alt sütunlarını təşkil edirdi və perspektiv siyasi-iqtisadi proseslərin nəticələri də nəzərə alınmaqla tərtib olunan zəngin konsepsiyaya əsaslanırdı. Heydər Əliyev həmin dövrdə müstəqil dövlətin yeni sistemə transformasiyası ilə bağlı islahatların həyata keçirilməsinin olduqca çətin və mürəkkəb olduğunun bildirirdi: «Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur».

Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı, dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur. Digər sahələrdə də özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. İqtisadi transformasiyanın sürətləndirilməsi sayəsində planlı iqtisadi sistemdən liberal bazar iqtisadiyyatına keçid üçün münbit şərait formalaşdı, iqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatlara başlanıldı. 1994-cü il sentyabrın 20-də ulu öndərin gərgin əməyinin, qətiyyətinin və fenomenal siyasi iradəsinin nəticəsi olaraq «Əsrin müqaviləsi»nin imzalanması ilə yeni neft strategiyasının əsası qoyuldu. Bu müqavilə siyasi-iqtisadi və hüquqi baxımdan qlobal əhəmiyyəti ilə bərabər, milli maraqlarımızın təmin olunması üçün güclü strateji saziş idi. Bununla da Azərbaycan öz maddi sərvətlərinə, neft-qaz ehtiyatlarına sahibliyini qətiyyətlə təsdiqlədi. Müqavilə ölkəmizin tarixində yeni dövr açaraq dinamik inkişafın təməl prinsiplərindən birinə çevrildi.

Ulu Öndərin həyata keçirdiyi mükəmməl iqtisadi strategiyanın əsas istiqamətlərindən biri ölkəmizdə vergi xidmətinin formalaşması ilə bağlıdır. Məhz onun birbaşa təşəbbüsü ilə Azərbaycanın müasir vergi sisteminin fundametal əsasları yaradılıb, kompleks və sistemli islahatların istiqamətləri müəyyən edilib. Vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, kadr potensialının çevik idarəetmə sistemində fəaliyyətinin təkmilləşdirilməsi vergi siyasətinin güclü və işlək mexanizmlərini formalaşdırılıb. Ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyinin yaradılması yeni dövrün inkişaf meyarlarından biri olmaqla, iqtisadiyyatı yüksək artım templəri ilə müşahidə edilən Azərbaycan dövlətinin qarşısında vergi siyasətinin həyata keçirilməsinin və vergi siyasətinin iqtisadi siyasətin mühüm tərkib hissəsi olmasının əyani təzahürü idi. Nazirliyin yaradılması vergi xidmətinin hüquqi baxımdan statusunun qaldırılmasına, funksional idarəetmədə, iqtisadi tənzimləmədə və fiskal siyasətin həyata keçirilməsində aparıcı rolunun artmasına səbəb olub. Ulu Öndərin tapşırığı əsasında ölkəmizdə həyata keçirilən vergi siyasətinin daha da gücləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, təkmil qanunvericilik bazasının yaradılması ilə bağlı ardıcıl tədbirlərin davamı kimi Vergi Məcəlləsi qəbul edildi. Məcəllənin qəbul olunması vergi sektorunda islahatların genişləndirilməsi üçün əhəmiyyətli zəmin yaratdı. Ölkədə iqtisadi inkişafın sürətləndirilməsi, optimal vergitutma mexanizminin və əlverişli investisiya mühitinin yaradılması, sahibkarlığın inkişafının stimullaşdırması üçün vergi siyasətinin təkmilləşdirilməsi və vergi sistemində davam etdirilən digər tədbirlər ulu öndərin əsasını qoyduğu strateji konsepsiyaya əsaslanır.

Bu gün xalqımız ümummilli lider Heydər Əliyevin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Dərin inam hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin Azərbaycanın rifahı və xoşbəxt gələcəyi naminə həyata keçirməyə başladığı taleyüklü məsələləri xalqımızın dəstəyi ilə uğurla həll edir, dahi şəxsiyyətin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti və diqqətəlayiq nailiyyətləri ilə daha da zənginləşdirir.

Həyatının heç bir anını bütün dəyərlərdən uca tutduğu xalqından əsirgəməyən, ömrünü millətinin xoşbəxt gələcəyinə həsr edən, millətlərin içərisində millətinin səsinin eşidilməsini həyatının mənası hesab edən Heydər Əliyev uzun illər arzularında yaşatdığı dövləti - müstəqil Azərbaycanı qurdu və gələcək nəsillərə əvəzsiz bir miras olaraq qoyub getdi. Lakin əminliklə deyə bilərik ki, dünən olduğu kimi, bu gün də, sabah da ulu öndər Heydər Əliyev bizimlədir və hər zaman da bizimlə olacaq.

**Anar ƏLİYEV**

# Azərbaycanda vergi yükü dünya üzrə orta göstəricidən aşağıdır

***Dünya Bankı (DB) və «PricewaterhouseCoopers» (PwC) beynəlxalq audit şirkəti tərəfindən hazırlanmış «Paying Taxes 2018» icmalında Azərbaycan 35-ci yerdə qərarlaşıb.***

«PwC» şirkətinin açıqlamasına əsasən, 190 ölkənin iqtisadiyyatını əhatə edən icmalda Azərbaycanın vergi sistemi regionun bir sıra ölkələri ilə müqayisədə biznes fəaliyyəti və rəqabət üçün sərfəlidir. Azərbaycanda vergi yükü 39,8% təşkil etməklə, dünya üzrə orta göstəricidən (40,5%) aşağıdır. Hesabatda Portuqaliya (39,8%), Niderland (40,4%), Türkiyə (41,1%), ABŞ (44%), Avstraliya (47,6%), Almaniya (48,9%), İspaniya (49,0%), Avstriya (51,6%), İtaliya (62%) və Fransa (62,8%) kimi inkişaf etmiş ölkələrin vergi yükü daha yüksəkdir. Bu göstərici keçmiş sovet dövlətlərində - Moldovada 40,4%, Litvada 42,7%, Rusiyada 47,4%, Estoniyada 48,7%, Ukraynada 51,9%, Belarusda 54,8%-dir. Qeyd etmək lazımdır ki, bura sosial sığorta ödəmələri də daxildir.

«Paying Taxes» (vergilərin ödənilməsi) üzrə icmalda ölkəmiz ötənilki hesabatla müqayisədə 5 pillə irəliləyib. Respublikamız vergilərin ödənilməsinin asanlığına görə MDB məkanında ilk yerlərdən birini tutur. Bu metologiyaya əsasən, orta ölçülü şirkətin il ərzində ödəməli olduğu vergi və ödəmələr, həmçinin onların inzibatçılıq yükü müəyyən edilir. Vergi və ödəmələrə müxtəlif mənbələrdən olan mənfəət və gəlirlərə görə vergilər, o cümlədən əmlak icarəsindən vergilər, dividend və kapital vergiləri, maliyyə köçürmələrindən əldə olunan gəlirdən vergilər, işəgötürənin ödədiyi əmək vergiləri, sosial ayırmalar, əmlak, avtomobil, yol vergiləri və sair aid edilir.

Dövlət büdcəsinə vergilərin ödənilməsi və bəyannamələrin təqdim edilməsi sahəsində vergi sistemində tətbiq edilən yeniliklər əvvəlki illərin reytinq cədvəllərində öz əksini tapıb və «Vergilərin ödənişi» göstəricisində ölkəmiz xeyli irəliləyib. Hesabatda ölkədə sosial müdafiə ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada aparılması və digər sahələrdə əldə edilmiş nailiyyətlər də nəzərə alınıb. İndiyədək Azərbaycanda məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması tam başa çatdırılıb ki, nəticədə həmin hesabatların hazırlanıb ödənilməsinə sərf olunan vaxt 81 saata enib. Digər vergilər - sosial müdafiə ayırmaları, mənfəət və əlavə dəyər vergisi üzrə sərf olunan vaxt isə 195 saat müəyyənləşdirilib. Hesabatda ödənişlərin sayı 6, ümumi vergi dərəcəsi 39,8 % qeyd olunub.

Vergi ödəyicilərinin müəyyən dövr ərzində həyata keçirdikləri təsərrüfat fəaliyyəti ilə bağlı ödədikləri vergilərin məcmusu vergi yükü hesab edilir və bu göstəricinin səviyyəsi vergi ödəyicisinin ödədiyi vergilərin onun əldə etdiyi gəlirlərə nisbəti kimi müəyyən olunur. Vergi qanunvericiliyində edilmiş və 1 yanvar 2017-ci ildən qüvvəyə minmiş dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və onlara göstərilən xidmətlərin səviyyəsinin artırılması ilə yanaşı, vergi yükünün azaldılmasını da nəzərdə tutur. Bu da təbiidir, çünki ölkəmizdə həyata keçirilən dövlət vergi siyasətinin əsas hədəflərindən biri vergi yükünün optimallaşdırılması və tədricən istehsaldan istehlaka keçirilməsidir. Bu məqsədlə bəzi mallar və xidmətlər üzrə vergilərin dərəcələri tam və ya qismən azaldılıb, bir sıra vergi güzəştləri tətbiq olunub və bütün bunlar vergi ödəyiciləri üçün əlverişli vergi mühitinin formalaşmasına şərait yaradıb.

| «Vergilərin ödənişi» indeksi | | | |
|---|---|---|---|
| | Azərbaycan | Avropa və Mərkəzi Asiya | OECD |
| Ödənişlər (il ərzində sayı) | 6.2 | 16.5 | 10.9 |
| Ödənişlərə sərf olunan vaxt (illik saat) | 195 | 218.4 | 160.7 |
| Ümumi vergi dərəcəsi (faizlə) | 39.8 | 33.1 | 40.1 |
| Hesabata sərf olunan vaxt (0-100) | 83.79 | 66.2 | 83.45 |

«PwC» şirkətinin vergi eksperti Arif Quliyev hesab edir ki, Azərbaycan dövlətinin son illər vergi sistemində həyata keçirdiyi islahatlar - ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron formada ödənişi, fiziki və hüquqi şəxslərin qeydiyyatının real vaxt rejimində aparılması və digər yeniliklər «Paying Taxes 2018» hesabatında yaxşı nəticənin əldə olunmasına ciddi təsir göstərib. Elektron vergi bəyannamələrinin tətbiqinin genişlənməsi və vergi ödənişləri infrastrukturunun inkişafı, vergitutma sahəsində xərc tələb edən prosedurlar, vergi qanunvericiliyinin tələblərinə riayət edilməsinə sərf olunan vaxt və vergi ödənişlərinin sayının azaldılması ölkənin reytinq göstəricilərinə müsbət təsir göstərir. Hazırda vergi sistemini əhəmiyyətli dərəcədə təkmilləşdirərək kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli vergi mühitinin, eləcə də xarici investisiyaların cəlb edilməsi məqsədilə rəqabətədavamlı vergi rejiminin yaradılması istiqamətində islahatların aparılması mühüm əhəmiyyət kəsb edir.




Azərbaycan dövlətinin son illər vergi sistemində həyata keçirdiyi islahatlar - ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron ödənişi, fiziki və hüquqi şəxslərin qeydiyyatının real vaxt rejimində aparılması və digər yeniliklər «Paying Taxes 2018» hesabatında yaxşı nəticənin əldə olunmasına ciddi təsir göstərib.




**Elbrus CƏFƏRLİ**

## Vergi borcunuz barədə məlumat almaq istəyirsinizsə...

Vergi ödəyicilərinin məlumat almaq imkanlarının genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Vergilər Nazirliyinin rəsmi internet saytında və sosial şəbəkələrdəki səhifələrində, vergi ödəyiciləri ilə keçirilən görüşlərdə bu amil diqqət mərkəzində saxlanılır.

Bu ilin əvvəlindən vergi ödəyiciləri öz vergi borcları barədə məlumatı elektron formada əldə edə bilirlər. İstifadəçilərə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng edərək və ya Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi ödəyicisinin VÖEN-ni daxil edərək dövlət büdcəsinə olan vergi borcu haqqında məlumat əldə etmək imkanı yaradılıb. Bu xidmətin icrası istifadəçinin tələb olunan məlumatları sistemə daxil edərək təsdiqlənməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, dərhal həyata keçirilir. Xidmətdən fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. Xidmətin göstərilməsi üçün hər hansı ödəniş nəzərdə tutulmayıb və sənəd tələb olunmur. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə www.taxes.gov.az; www.e-taxes.gov.az; www.e-gov.az; və www.dxr.az ünvanlarında təqdim olunur. Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə isə 195-1 nömrəli telefona zəng etmək kifayət edir.

Əməliyyatların düzgün aparılmaması, səhv məlumatın daxil edilməsi istifadəçinin yenidən sorğu verməsinə mane olmur. İstifadəçi tərəfindən əməliyyatlar düzgün aparılaraq vergi ödəyicisinin eyniləşdirmə nömrəsi düzgün daxil edildikdə sorğu qəbul olunur və istifadəçi vergi borcu barədə məlumatı əldə edir. Onu da bildirək ki, vergi borcu barədə məlumatın əldə olunması bununla məhdudlaşmır. Ödəyicilər «İkitərəfli SMS xidməti»nə (www.taxes.gov.az/195sms) qoşulmaqla (abunə olmaqla) 21, xidmətdən sorğu vasitəsilə (SMS göndərməklə) isə 5 istiqamət üzrə vergi öhdəlikləri barədə məlumatları əldə edə bilərlər. Xidmətdən istifadə etmək üçün mobil operatorlara məxsus telefon nömrəsindən *195*istifadəçi kodu*şifrə#yes yığmaqla qeydiyyatdan keçmək tələb olunur.

Abunə olmaqla vergi öhdəlikləri barədə məlumat almaq üçün qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə START yazıb SMS göndərildikdə 21 vergi öhdəliyi barədə məlumatlar vergi ödəyicisinə çatdırılır. Abunə olmadan vergi öhdəlikləri barədə məlumat almaq üçün qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə 1 yazıb SMS göndərdikdə isə dövlət büdcəsinə olan vergi borcu barədə məlumatı əldə etmək mümkündür.

**AYTƏN**

## Ümumi Hesabatlılıq Standartı ilə bağlı seminar keçirilib

Vergilər Nazirliyinin dəstəyi və «KPMG Azərbaycan» şirkətinin təşkilatçılığı ilə keçirilmiş seminar «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»ya qoşulmaqla bağlı Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icrasına həsr olunub.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktor müavini Vüsal Şıxəliyev bildirib ki, vergi səmərəliliyini artırmaq, vəsaitlərin mərkəzləşdirilməsi, beynəlxalq vergi idarəetmə sistemlərinə qoşulmaq baxımından razılaşmanı imzalayan dövlətlər vergitutma məqsədləri üçün xarici dövlətlərin rezidentləri olan fiziki və hüquqi şəxslərin maliyyə institutlarındakı hesabat verilməli hesabları barədə məlumatları toplanmalı və həmin şəxslərin rezidenti olduqları dövlətlərlə avtomatik mübadiləni aparmalıdırlar. Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşmaya qoşulmaq barədə bəyanat 2017-ci il iyunun 1-də imzalanıb. Həmin sənədə əsasən, Azərbaycan Respublikası tərəfindən ilk mübadilənin 2018-ci ilin sentyabr ayında həyata keçirilməsi nəzərdə tutulub. Ümumi Hesabatlılıq Standartı (Common Reporting Standard - CRS) vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin oradakı maliyyə institutlarında olan hesabları haqqında məlumatların toplanması və həmin şəxslərin rezident olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyir. Bu standart 2014-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanıb.

Seminarda «KPMG Azərbaycan»ın Böyük Britaniya ofisinin partnyoru, məlumatların mübadiləsi üzrə qrupun rəhbəri Peter Grant, «KPMG Azərbaycan»ın nümayəndə heyətinin üzvləri Fərid İsayev və Seymur Niftəliyev çıxış edərək, sistemin vergi mübahisələrinin həlli, beynəlxalq vergi planlaşdırılması sahəsində səmərəsi və FATCA adlandırılan Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktından daha geniş anlamda vergi ödəyicilərindən onların başqa dövlətlərdə olan maliyyə hesabları, xarici maliyyə institutlarından özlərinin bu cür müştəriləri haqqında məlumatların açıqlanmasında, vergi ödəyiciləri tərəfindən vergidən yayınmaya qarşı mübarizə və federal vergi gəlirlərinin artırılmasında rolu haqqında məlumat veriblər.

**Fəxriyyə İKRAMQIZI**

# İcbari tibbi sığorta mərhələli şəkildə tətbiq ediləcək

2016-cı ildə Nazirlər Kabineti yanında İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin əsasnaməsinin qəbul edilməsi və strukturunun müəyyənləşdirilməsi, tətbiqi üçün hazırlıq işlərinin aparılması, baza zərfinin təsdiq edilməsi və bu sığortanın pilot qaydada tətbiqinə başlanılması icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqi üçün şərait yaradıb. İcbari tibbi sığorta pilot layihə kimi 2017-ci il yanvarın 1-dən Mingəçevir şəhərində və Yevlax rayonunda həyata keçirilir və layihə müddətində əhalidən sığorta haqqı toplanılmır. Gələcəkdə isə bu sığortanın mərhələli şəkildə bütün ölkə üzrə tətbiq edilməsi planlaşdırılır.

İcbari tibbi sığortadan ölkə vətəndaşlarının, Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin faydalanmaq hüququ var. Bu sığortanın baza zərfinə 1829 sayda tibbi xidmət daxildir ki, bunlardan 480-i ambulator, 677-si stasionar, 6-sı təcili və təxirəsalınmaz, 18-i ilkin səhiyyə, 23-ü isə fizioterapevtik tibbi xidmətlərə aiddir. Həmçinin 459 laborator müayinəyə və 166 həyativacib, dəyəri yüksək xidmətlərə təminat verilir. Vətəndaşlar baza zərfinə daxil olmayan xidmətləri əlavə ödəniş əsasında əldə edə bilərlər. Baza zərfi tərəfindən təminat verilməmiş hər bir xidmət və ya müayinə üçün tariflər ölkə Prezidentinin 2016-cı il 28 dekabr tarixli fərmanı ilə təsdiq olunub. İcbari tibbi sığortanın əsas xidmətlər zərfinə təcili və təxirəsalınmaz tibbi yardım, habelə stasionar müalicə müddətlərində istifadə olunacaq dərman vasitələri daxildir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2017-ci ilin üçüncü rübü ərzində pilot layihənin gedişatına dair açıqladığı statistik məlumatlarında qeyd olunur ki, pilot ərazilərdə sığorta olunanların ümumi sayı 256 min 401 nəfər təşkil edib. İlkin səhiyyə xidmətindən əlavə, doqquz ayda Mingəçevir şəhər Mərkəzi Xəstəxanasında sığorta olunan 104 min 81 nəfərə 352 min 271 ambulator, 11.148 nəfərə 35.515 stasionar xidmət,Yevlax rayon Mərkəzi Xəstəxanasında isə 44 min 202 nəfərə 149 min 202 ambulator, 2332 nəfərə 3770 stasionar xidmət göstərilib. Bu xəstəxanalarda göstərilən xidmətlərin dəyəri, müvafiq olaraq, 6.059.288 və 1.779.879,39 manat təşkil edib.




Yevlax rayonunun ərazisində dörd, Mingəçevirdə isə iki ilkin səhiyyə xidməti (İSX) təşkil olunub və 18 adda xidmət göstərilir. 2017-ci ilin sonunadək Yevlax rayonunun Aran qəsəbəsində də İSX-nin təşkil olunması nəzərdə tutulub. Xidmətin maliyyələşməsi adambaşına ödəniş mexanizminə əsasən həyata keçirilir. Hər ailə həkiminə orta hesabla 2500 nəfər təhkim olunaraq siyahı hazırlanıb və müvafiq elektron sistemə yüklənib. Təhkim olunmuş əhalinin ailə həkimini seçmək və dəyişmək hüququ var. Agentlikdən verilən məlumata görə, pilot rayonlarda bu ilin doqquz ayı ərzində əhaliyə aşağıdakı tibbi xidmətlər göstərilib:

- Ürək-damar cərrahiyyəsi üzrə - açıq və qapalı ürək əməliyyatları, qapaqların protezləşdirilməsi, aorta-koronar şuntlama (Bypass), aorta disseksiyasının bərpası, anadangəlmə ürək qüsurlarının aradan qaldırılması, balon və stentlərin tətbiq edilməsi ilə angioplastika, endovaskulyar anevrizma müalicəsi, angioqrafiya və s.;
- Uroloji əməliyyatlar üzrə - urinar sistem daşlarının laporaskopik litotripsiyası və litotomiyası, endoskopik ureteroselektomiya, pieloplastika, perkutan nefrostomiya, prostat vəzinin qapalı əməliyyatı (TUR) və s.;
- Travmatologiya üzrə - oynaqların artoplastikası, sınıqların qapalı reduksiyası, əzələ-bağ aparatında aparılan əməliyyatlar, müxtəlif konstruksiyaların köməyi ilə osteosintez və s.;
- Oftalmologiya üzrə - gözün müasir müayinə və diaqnostika metodları, kataraktanın müasir mikrocərrahi üsul ilə müalicəsi və s.;
- Neyrocərrahiyyə üzrə - fəqərəarası disk patologiyalarının bərpası, kraniotomiya ilə hematomanın çıxarılması, anevrizma müalicəsi və s.;
- Ümumi cərrahiyyə üzrə - qarın boşluğunda aparılan bir sıra laparoskopik əməliyyatlar.

Pilot ərazilərdə icbari tibbi sığortanın baza zərfi ilə əhatə olunmayan və sığortasız şəxslərə göstərilən xidmətlərdən xəstəxanalara cəmi daxil olan vəsait 801.569,21 manat təşkil edib. 9 ay ərzində Mingəçevir şəhər Mərkəzi Xəstəxanası üzrə bu məbləğ 743.436,37 manat, Yevlax rayon Mərkəzi Xəstəxanası üzrə isə 58.132,84 manat olub.

Onu da qeyd edək ki, Avropa İttifaqının dəstəyi ilə iki il ərzində Azərbaycan, Fransa və Litva arasında əməkdaşlıq çərçivəsində «Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək» tvinninq layihəsi həyata keçirilir. 2019-cu ilin avqust ayınadək davam edəcək layihənin məqsədi icbari tibbi sığorta haqlarının yığılması, səhiyyə xidmətlərinin satın alınması ilə səhiyyə xərclərinin planlaşdırılması, icrası və monitorinqinin aparılmasında institusional potensialın gücləndirilməsidir.

**A. NƏBİYEVA**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Elektron qaimə-faktura

***ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron vergi hesab-fakturası ilə bərabər elektron qaimə-faktura da təqdim olunmalıdırmı?***

Vergi Məcəlləsinin 16.1.11-6-cı maddəsinə əsasən, vergi ödəyicisi tərəfindən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura verilməlidir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 2-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 2018-ci il 1 yanvar tarixindən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

**Qeyd olunanlara əsasən:**

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturası ilə yanaşı, elektron qaimə-faktura da təqdim edilməlidir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Mərkəzi Bankın valyuta ehtiyatları 2017-ci il dekabr ayının 1-nə **5 mlrd. 254,2 mln.** dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə **1 mlrd. 243,2 mln.** dollar və ya 30,99% çoxdur.
- Bu ilin on bir ayı ərzində Azərbaycana **2 milyon 477 min 908** nəfər xarici ölkə vətəndaşı gəlib.
- Ölkəmizdə fəaliyyət göstərən bankların oktyabrın 31-nə cəmi aktivləri **26,311.6 milyon** manat, cəmi öhdəlikləri isə **23,216.6 milyon** manat təşkil edib.
- Cari ilin yanvar-oktyabr ayları ərzində xarici ölkə vətəndaşları Azərbaycanda bank kartları vasitəsilə **871 mln. 597,845 min** manat əməliyyat aparıblar.
- Azərbaycan Respublikası Tarif (qiymət) Şurası yeni qeydiyyatdan keçmiş **300**-dən çox dərman vasitəsinin qiymətini müəyyənləşdirib.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Keyfiyyətsiz mallara nəzarət qaydaları təsdiqlənib

Nazirlər Kabineti «Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası»nı təsdiq edib.

Yeni qayda səlahiyyət verilmiş mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən yoxlamalar zamanı keyfiyyətsiz və təhlükəli, saxta, buraxılması və satılması qadağan olunmuş malların götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi prosedurlarını müəyyən edir. Bu sənəd mülkiyyət formasından asılı olmayaraq, bütün hüquqi və fiziki şəxslərə şamil edilir və gömrük nəzarəti altında olan mallar istisna edilməklə yeyinti məhsulları, parfümeriya və kosmetika məhsulları, dərman və şəxsi gigiyena vasitələri, bioloji fəallığa malik qida əlavələri, tütün məmulatları, məişət kimyası məhsulları, aqrokimyəvi maddələr, baytarlıq preparatları, bitki və bitkiçilik məhsulları, saxlanma (yararlılıq) müddəti müəyyən olunmuş digər qeyri-ərzaq məhsulları və tikinti materialları, yeyinti məhsulları və onların xammal və inqrediyentlərini əhatə edir.

Yoxlama zamanı malların müəyyən edilmiş tələblərə uyğunluğu barədə əsaslandırılmış şübhələr yaranarsa, həmin malların tədqiqi (sınağı) və bu məqsədlə malların nümunələrinin götürülməsi həyata keçirilir. Malın tədqiqi barədə qərar əsaslandırılmalı, yazılı formada tərtib edilməlidir. Tədqiqi aparılacaq malların həcmi texniki normativ hüquqi aktların tələblərinə uyğun miqdarda nümunənin götürülməsinə kifayət etmədikdə, onun tədqiqi aparılmır və məhv olunması barədə qərar qəbul edilir. Mallar müəyyən olunmuş qaydada akkreditasiyadan keçmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən tədqiq edilir və tədqiqin nəticələri əsasında yoxlayıcı orqan tərəfindən mallar barədə qərar qəbul olunur. Malların tədqiqinin nəticələri protokolla rəsmiləşdirilir və nəticələri əsasında aşağıdakı vəziyyətləri təyin edilir:

- birbaşa təyinatı üçün istifadəyə yararlılığı;
- birbaşa təyinatı və digər məqsədlə istifadə üçün yararsızlığı;
- təkrar emaldan sonra və ya emal edilmədən digər məqsədlər üçün yararlılığı.

Məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarda göstərilmiş tədbirlər yerinə yetirilənədək götürülmüş mallar, dəqiq çəkisi göstərilməklə, uçota alınaraq (rəsmiləşdirilərək) mal sahibinə, onun səlahiyyətli nümayəndəsinə və ya öz razılığı ilə yoxlayıcı orqanın səlahiyyətli vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə məsul saxlamaya verilir. Götürülmüş mallar məsul saxlamaya qoyulmaq üçün mal sahibinə və ya onun səlahiyyətli nümayəndəsinə təhvil verildikdə, malların lazımi şəraitdə və tam miqdarda saxlanmasına mal sahibi cavabdehdir. Birbaşa təyinatı və digər məqsədlə istifadə üçün yararsız olduğu müəyyən edilmiş malların məhv olunması yoxlayıcı orqanın həmin malların satışının qadağan edilməsi və ya dövriyyədən çıxarılması barədə qərarı əsasında həyata keçirilir. Malların məhv edilməsi onların yoxlayıcı orqan və ya onun qərarı ilə mal sahibi və yaxud onun səlahiyyətli nümayəndəsi tərəfindən bu məqsədlər üçün ayrılmış xüsusi yerlərə (yerlərdə) atılması, basdırılması, yandırılması və ya ixtisaslaşmış müəssisələrə təhvil verilməsi vasitəsilə həyata keçirilir.

Malların tədqiqi barədə qərara əsasən götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanması, tədqiq edilən parametrlərin dəyişməz qalması, daşınması, tədqiq aparılması, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər, həmçinin məhsulun tədqiqi barədə qərarın nəticəsi olaraq yaranan bütün digər xərclər yoxlayıcı orqanın hesabına ödənilir.

Əgər məhsul nümunələrinin tədqiq (sınaq) nəticələri malların müəyyən edilmiş tələblərə uyğun olmadığını və bu uyğunsuzluğun insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaratdığını və ya mühüm zərər vurduğunu müəyyən edərsə, yoxlayıcı orqanın çəkdiyi xərclərin əvəzi mal sahibi tərəfindən aşağıdakı hallar istisna olunmaqla ödənilməlidir:

- xərclər yoxlayıcı orqan tərəfindən faktiki olaraq çəkilmədikdə;
- xərclərin çəkilməsi barədə sənədli təsdiqləmə olmadıqda;
- xərclər yoxlayıcı orqan tərəfindən məhsul nümunələrinin
- qanunsuz götürülməsi ilə əlaqədar çəkildikdə.

Yoxlayıcı orqanın məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarının nəticəsi olaraq malların götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və məhv edilməsi ilə bağlı xərclər mal sahibinin hesabına ödənilir.

Nazirlər Kabineti müvafiq olaraq «İstifadəyə yararsız yeyinti məhsullarının götürülməsi, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydaları»nın təsdiq edilməsi barədə» 2005-ci il 12 fevral tarixli qərarını ləğv edib. Həmin qaydalar müayinə və ekspertizanın nəticələrinə görə standartlara və tələblərə cavab verməyən, yararlılıq müddəti qurtarmış, genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının və ya genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunmuş yeyinti məhsullarının götürülməsi, zərərsizləşdirilməsi və ya məhv edilməsini müəyyən edib.

# Sahibkarlar üçün mənşə sertifikatının alınması proseduru sadələşdirilib

***İxracla məşğul olan sahibkarlara ixrac sənədlərinin asan və daha rahat şəkildə təqdim olunması üçün dövlət dəstəyi tədbirləri davam etdirilir. Qeyri-neft məhsullarının ixracını artırmaq və sahibkarları ixraca həvəsləndirmək məqsədilə institusional islahatlar aparılıb, təşviqedici addımlar atılıb, sahibkarlara yardım mexanizmləri tətbiq edilir. İxracla məşğul olan sahibkarlara ixrac sənədlərinin asan və daha rahat şəkildə təqdim olunması üçün dövlət dəstəyi tədbirləri davam etdirilir. Qeyri-neft məhsullarının ixracını artırmaq və sahibkarları ixraca həvəsləndirmək məqsədilə institusional islahatlar aparılıb, təşviqedici addımlar atılıb, sahibkarlara yardım mexanizmləri tətbiq edilir.***

İqtisadiyyat Nazirliyi yanında «İstehlak Mallarının Ekspertizası Mərkəzi» MMC-nin rəhbəri Fazil Məmmədov bildirib ki, son 2 ildə Azərbaycan mənşəli məhsullara veriləcək ixrac təşviqi sistemi işə düşüb, İxracatçılar Klubunun və ixtisaslaşmış assosiasiyaların (şərab, nar, meyvə-tərəvəz və s.) yaradılması sayəsində milli ixrac potensialı səfərbər olunub. İxrac Portalının istifadəyə verilməsi sahibkarların xarici bazarlara çıxışı imkanlarını yaxşılaşdırıb.

İxracın təşviqi tədbirləri ilə bərabər, bu sahədə inzibati prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması təmin olunur, xarici ölkələrdə ixracatçılarımıza dəstək ola biləcək təşkilati tədbirlər görülür. Bu ildən elektron gömrük bəyannaməsinin tətbiqinə başlanılıb, ixrac üçün tələb olunan sənədlərin sayı azaldılıb. Mənşə sənədinin verilməsi prosedurunun sadələşdirilməsi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən elektron müraciət forması daha da təkmilləşdirilib, tələb olunan sənədlərin sayı hüquqi şəxslər üçün 9-dan 6-ya, fiziki şəxslər üçün isə 5-dən 4-ə endirilib. Azərbaycanda mənşə ekspertizası və malın mənşəyini təsdiq edən sənəd bir gün ərzində sahibkara təqdim olunur. Məlumat üçün bildirək ki, istər MDB məkanında, istərsə də digər ölkələrdə malın mənşəyinin müəyyən edilməsi müddəti 3 gündən az deyil. Bundan başqa, artıq 2 ildir ki, ölkəmizdə qeyri-neft malları üçün ekspertiza xidmətlərinin tarifləri 30% aşağı salınıb. Bununla yanaşı, dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında «bir pəncərə» prinsipinin tətbiqi milli ixrac potensialının artırılması üçün zəmin yaradıb. İxracın stimullaşdırılması ilə bağlı aparılan siyasət tədiyyə balansında müsbət dinamikanın yaranmasına səbəb olub, nəticədə ixracın səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib.

> İxracın təşviqi tədbirləri ilə bərabər, bu sahədə inzibati prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması təmin olunur, xarici ölkələrdə ixracatçılarımıza dəstək ola biləcək təşkilati tədbirlər görülür

F.Məmmədovun sözlərinə görə, Azərbaycan MDB ölkələri ilə mənşə sertifikatlarının elektronlaşdırılması ilə bağlı tədbirləri də həyata keçirəcək. İlk olaraq bu sahədə Rusiya ilə əməkdaşlıq planlaşdırılır, gələcəkdə isə Belarus, Qazaxıstan və digər ölkələrlə də bu sistemin qurulması nəzərdə tutulur. Mənşə sertifikatlarının elektronlaşdırılmasında məqsəd yerli sahibkarların ixracyönümlü mallarının xaricə göndərilməsinə kömək göstərməkdir.

Növbəti illərdə sertifikatlaşdırma ilə bağlı elektron xidmətlərin asanlaşdırılması, ixracın stimullaşdırılmasına dəstək mexanizmlərinin sadələşdirilməsi işləri davam etdiriləcək.

Bu istiqamətdə mühüm tədbirlərdən biri də regionlarda ixrac yönümlü məhsulların istehsalı ilə məşğul olan ixracatçılara vergi güzəştlərinin tətbiqidir. «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş prioritetlərdən biri bölgələrdə ixracla bağlı vergi güzəştlərinin edilməsi nəzərdə tutulub. Artıq Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, digər regionlarda ixrac yönümlü məhsullar istehsal edən ixracatçılara, eləcə də müəyyən edilmiş şərtlər daxilində özəlləşdirilən dövlət müəssisələrinə əmlak vergisi üzrə növbəti üç ildə vergi güzəştlərinin tətbiqi ilə əlaqədar yeni mexanizmlər hazırlanıb.

**ELBRUS**

# Özəlləşdirmə ilə bağlı hərrac elektronlaşdırılıb

***Əmlak Məsələləri Dövlət Komitəsində (ƏMDK) «Dövlət əmlakının özəlləşdirilməsində elektron hərracların tətbiqi: müasirlik və şəffaflıq» mövzusunda keçirilən tədbirdə daha bir innovativ layihə ictimaiyyətə təqdim olunub.***

ƏMDK-nın İctimaiyyətlə əlaqələr və protokol şöbəsinin müdiri Qulu Xəlilovun sözlərinə görə, bu layihənin reallaşdırılması nəticəsində dövlət əmlakının bütün növlərini heç yerə getmədən bir virtual məkandan elektron hərrac vasitəsilə özəlləşdirmək mümkündür. Başqa sözlə, təkcə nəqliyyat vasitələrinin deyil, həmçinin kiçik dövlət müəssisələrinin, səhmdar cəmiyyətlərinin səhm paketlərinin, qeyri-yaşayış və torpaq sahələrinin hərracı tam elektronlaşdırılıb. Bundan sonra ölkə vətəndaşları və iş adamları dünyanın istənilən nöqtəsindən özəlləşdirmə hərraclarına onlayn qatılaraq dövlət əmlakının bütün növlərinin özəlləşdirilməsində iştirak edə bilərlər. Qeydiyyatdan keçmək, hərraclarda iştirak etmək üçün sifariş vermək, hərracın gedişatını onlayn rejimdə birbaşa izləmək kimi proseslər elektron müstəviyə keçirilib.

Komitənin Strateji araşdırmalar, innovasiyalar, monitorinq və təhlil şöbəsinin müdiri Şamil Şirinov bildirib ki, ƏMDK özəlləşdirmə prosesinin sürətləndirilməsi, iqtisadiyyata investisiya cəlb olunması, özəlləşdirmə prosedurlarının elektron üsullarla reallaşdırılması istiqamətində işlərini davam etdirir: «Dövlət əmlakının özəlləşdirilməsinin şəffaf və açıq şəraitdə, ictimai nəzarət və səmərəlilik prinsipləri təmin olunmaqla həyata keçirilməsi ilə bağlı fəaliyyətini təkmilləşdirir». Bildirilib ki, elektron hərracların istifadəyə verilməsinin prioritet prinsiplərindən biri də məkan məfhumunun aradan qaldırılması, zaman faktorunun minimumlaşdırılması, iştirak prosedurlarının sadələşdirilməsi, statistik göstəricilərin yüksəldilməsidir. Bunun nəticəsində prosesdən büdcə daxilolmalarının artmasına şərait yaranır. Eyni zamanda, bu layihələrin reallaşdırılması vətəndaş-məmur münasibətlərini minimuma endirir, investorların özəlləşdirilməyə cəlb olunması ilə bağlı geniş imkanlar yaradır.

Elektron hərraclarda iştirakı ƏMDK-nın emdk.gov.az rəsmi səhifəsi vasitəsilə izləmək mümkündür. Bu məqsədlə saytda xüsusi keçid yaradılıb. Elektron hərracdan istifadə mexanizmi kifayət qədər sadə və rasionaldır. Bununla yanaşı, komitənin http://privatization.az saytı vasitəsilə bir virtual məkanda özəlləşdiriləcək əmlak və müəssisələr barədə məlumat əldə etmək və onlayn rejimdə hərracda iştirak etmək imkanları yaradılıb. Elektron imzadan istifadə etməklə komitənin rəsmi saytından (e-emdk.gov) və ya «Elektron hökumət» portalından (e-gov.az ) qeydiyyatdan keçmiş hər bir sifarişçi hərrac günü onlayn qaydada aktiv hərraca qatılmaq imkanı qazanır. Hərraclarda iştirak etmək üçün sifariş vermək də elektron qaydada həyata keçirilir.

Qeyd edək ki, İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzində mütəmadi qaydada keçirilən açıq və şəffaf hərraclar vasitəsilə müxtəlif növ iqtisadi sahələrə aid olan səhmdar cəmiyyətlərinin səhm paketləri, kiçik dövlət müəssisələri, istifadəsiz qeyri-yaşayış sahələri, nəqliyyat vasitələri özəlləşdirməyə çıxarılır.

**FƏXRİYYƏ**

# Peşə standartları işçi qüvvəsinin inkişafına xidmət edir

**Avropa Təlim Fondunun təşkilatçılığı ilə Bakıda «Azərbaycanda işçi qüvvəsinin inkişaf etdirilməsi məqsədilə peşə standartlarından istifadə olunması» mövzusunda konfrans keçirilib.**

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun sözlərinə görə, ölkəmizdə peşə standartlarının tətbiqi nəticəsində əmək bazarında işçilərin peşə və ixtisaslarına olan tələblərlə bağlı daimi institutlaşmış informasiya bazası, kadr hazırlığı sistemində bu tələbləri müəyyən etməyə imkan verən mənbə formalaşır. Hazırda hökumətin sosial inkişaf siyasətində əsas hədəflər sırasında işçi qüvvəsinin rəqabət qabiliyyətinin yüksəldilməsi, əhalinin əmək bazarının yeni tələbləri əsasında keyfiyyətli peşə təhsili xidmətləri ilə təmin edilməsi mühüm yer tutur. 2010-2015-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Dünya Bankı ilə birgə icra etdiyi «Sosial müdafiənin inkişafı» layihəsi çərçivəsində beynəlxalq ekspertlərin və yerli mütəxəssislərin iştirakı ilə iqtisadiyyatın müxtəlif sahələri üzrə 289 peşə və 63 kvalifikasiya standartı hazırlanaraq işəgötürənlərin istifadəsinə verilib. 2016-cı ilin əvvəlindən daha 61 adda peşə standartının layihəsi hazırlanıb, növbəti 3-4 il ərzində isə 300 mövcud peşə standartının yenilənməsi, 500-dən çox yeni peşə standartının hazırlanması planlaşdırılır.

Bildirilib ki, nazirlikdə peşə standartları ilə bağlı məlumatları əks etdirən www.dios.az internet səhifəsi yaradılıb, rəsmi internet səhifəsində də peşə standartları haqqında məlumat bazası mövcuddur və internet resursunun təkmilləşdirilməsi üzrə işlər aparılır. Hazırlanmış standartlar müəssisələr tərəfindən də geniş istifadə olunur: son 8 ayda peşə standartları sayt üzərindən 35 min dəfədən çox yüklənib. Bundan əlavə, peşə standartlarının hazırlanması, təsdiqi və tətbiqi prosedurlarını tənzimləyəcək qaydaların və metodiki tövsiyələrin layihəsi hazırlanıb və həmin normativ-hüquqi aktların beynəlxalq standartlara və milli qanunvericilik sisteminə uyğunlaşdırılması, eləcə də müvafiq hüquqi bazanın yaradılması üçün Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi ilə birgə gələn ilin əvvəlindən yeni layihəyə başlanması nəzərdə tutulur. Bu işlər, həmçinin, «Ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi»nin təsdiqi, «Peşə təhsili haqqında» Qanunun qəbul edilməsi, «İlk peşə-ixtisas təhsili üzrə ixtisasların təsnifatı»nın əmək bazarının tələblərinə uyğunlaşdırılmaqla əmək bazarı ilə təhsil sistemi arasında uyğunluğun təmin edilməsində əhəmiyyətli rol oynayacaq.

Qeyd olunub ki, dövlət başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi»ndə müəyyən edilmiş vəzifələrin icrası məqsədilə qeyri-formal üsullarla əldə olunmuş səriştələrin tanınması mexanizminin və işə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb olunmasının hüquqi bazasının formalaşdırılması diqqətdə saxlanılır. Bununla bağlı ƏƏSMN ilə Təhsil Nazirliyi arasında razılaşdırılmış təkliflər Nazirlər Kabinetinə təqdim edilib. Təkliflərdə rəsmi təhsildən kənarda əldə olunmuş bacarıqların tanınması prosedurunu həyata keçirəçək Sertifikatlaşdırma Mərkəzinin, müxtəlif iqtisadi sahələr üzrə ekspertlər şəbəkəsinin yaradılması və digər məsələlər yer alır. Ölkədə bacarıqların peşə standartları vasitəsilə tanınması, bundan sonra işə qəbul zamanı peşə ixtisasını təsdiqləyən sənədin tələb edilməsi bu sahədə aparılan islahatlara mühüm töhfəsini verəcək.

Statistik məlumatlara əsasən, ölkənin əmək qabiliyyətli əhalisinin yalnız 32 faizi ixtisaslıdır. İşsiz və işaxtaran şəxslərin peşə-ixtisas təhsilinin, əmək vərdişlərinin müasir əmək bazarının tələblərinə cavab verməməsi də onların işlə təminatında çətinlik yaradır. Digər tərəfdən, elm və texnologiyaların sürətli inkişafı mövcud olan bir çox peşələrin məzmununun köhnəlməsi ilə nəticələnir. Məhz bu baxımdan, yeni peşə standartları işçinin işə qəbul olunması və karyera yüksəlişinin planlaşdırılmasında, işəgötürənin tələblərinə cavab verə biləcək kadr potensialının formalaşdırılmasında, işsiz və işaxtaran vətəndaşların məşğulluğunun təminatında əsas alət rolunu oynayır.

**AYTƏN**

# Yeni şəxsiyyət vəsiqələri elektron imza ilə təmin olunacaq

***«Bakutel 2017» - 23-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi-konfransında Azərbaycan Respublikası vətəndaşının yeni şəxsiyyət vəsiqəsinin təqdimatı olub.***

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib ki, 2019-cu ildən veriləcək yeni nəsil şəxsiyyət vəsiqəsində vətəndaşlar elektron imza sertifikatı ilə təmin olunacaqlar. Bunun üçün müvafiq infrastruktur artıq hazırdır. Milli Məclisin ötən ay qəbul etdiyi «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Qanuna dəyişikliyə əsasən, müvafiq qurumlar tərəfindən sənədin verilməsi ilə bağlı tədbirlər müəyyənləşdirilib.

Hazırda ölkəmizdə istifadə olunan şəxsiyyət vəsiqəsi 1994-cü ildə qəbul edilmiş qanuna əsasən tətbiq olunur. Texnologiyanın inkişafı, tanıma cihazlarının, informasiya oxuyan vasitələrin yaradılması, həmçinin cihaz tərəfindən oxuna bilən elektron informasiya çeşidlərinin artması elektronlaşan ictimai vasitələr sırasına şəxsiyyət vəsiqəsinin də əlavə edilməsinə zərurət yaradır.

Nazirliyin Məlumat Hesablama Mərkəzindən bildirildiyinə görə, yeni nəsil şəxsiyyət vəsiqəsi bir çox texniki və innovativ üstünlüklərə malikdir. Burada biometrik texnologiyaların elementləri tətbiq olunacaq. Ən əsası, bu sənəd həm də elektron imza kartı kimi istifadə ediləcək və onunla elektron sənədləri imzalamaq mümkün olacaq. Ən maraqlı yeniliklərdən biri də budur ki, şəxsiyyət vəsiqəsindən nağdsız hesablaşmaların aparılması və elektron ticarət üçün də istifadə etmək mümkün olacaq. Hazırda bu mexanizmin yaradılması üçün müvafiq qurumlar bir sıra texnoloji məsələləri həll etmək üzərində çalışırlar.

Yeni nəsil şəxsiyyət vəsiqəsi təhlükəsizlik baxımından köhnə vəsiqədən daha üstün olacaq. Yeni vəsiqədəki elektron daşıyıcı (çip) vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatları, vəsiqə sahibinin biometrik fotosunu və digər fərdi göstəriciləri özündə birləşdirəcək. Vəsiqədə vətəndaşın biometrik texnologiyalar əsasında bütün əlamətləri və fizioloji xüsusiyyətləri: barmaq izi, gözün torlu və quzehli qişaları, sifət şəkli, əlin həndəsəsi, ovucun şəkli, bədənin qoxusu, qulaqların forması, termoqramlar, DNT, səs, əl imzası, dodaqların hərəkəti, klaviatura xətti, yerişi və s. cizgilərlə öz əksini tapıb. Bu vəsiqə digər ölkələrin müvafiq orqanları ilə biometrik informasiya mübadiləsinin tənzimlənməsində müstəsna əhəmiyyət kəsb edəcək.

Yeni şəxsiyyət vəsiqəsi dövlətin elektron xidmətlər şəbəkəsinin tərkib hissəsi olmaqla, informasiya texnologiyalarının insan həyatına geniş nüfuz etməsinin göstəricisidir. Məqsəd dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin çeşidinin yüksəldilməsi, bu istiqamətdə görülən işlərin operativ həlli və bürokratik əngəllərin aradan qaldırılmasıdır. Biometrik texnologiyaların tətbiqi sayəsində vətəndaşlar tamamilə bürokratik maneələrdən azad olur, sənəd təqdim etmələri və digər məsələlərlə bağlı işləri asanlaşır. Ona görə də yeni nəsil şəxsiyyət vəsiqələri e-hökumətin identifikasiya sisteminin ən vacib komponenti kimi yüksək qiymətləndirilir.

**ELBRUS**




> Texnologiyanın inkişafı, tanıma cihazlarının, informasiya oxuyan vasitələrin yaradılması, həmçinin cihaz tərəfindən oxuna bilən elektron informasiya çeşidlərinin artması elektronlaşan ictimai vasitələr sırasına şəxsiyyət vəsiqəsinin də əlavə edilməsinə zərurət yaradır

# «Bakutel 2017» — müasir texnologiyaların görüş yeri...

Dekabrın 5-dən 8-dək Bakıda keçirilmiş Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları - «Bakutel 2017» sərgi və konfransında ən müasir texnologiyalar, yeni layihələr, xidmətlər və maraqlı həllər nümayiş etdirilib. Dünyanın 20 ölkəsini təmsil edən 192 şirkəti bir araya toplayan tədbirdə Azərbaycanın aparıcı İKT şirkətləri, mobil operatorları, rabitə operatorları, internet provayderləri, sistem inteqratorları, tanınmış brendlərin distribütorları, eləcə də teleradio yayım şirkətləri də iştirakçılar arasında olublar.

«Bakutel 2017» sərgisində bir sıra ölkələrin milli stendləri də təqdim edilib. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə keçirilən sərgi Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənib. Sərgidə gənc perspektivli «startap»ların da təqdimatına böyük diqqət yetirilib. «Azexport.az» portalının rəhbəri Zaur Qardaşovun sözlərinə görə, sərgidə yaradılan Səyyar Xidmət Mərkəzi vasitəsilə gənc dizaynerlərə öz ixtira, proqram və xidmətlərini dünyanın aparıcı elektron ticarət platformalarında nümayiş etdirərək potensial alıcılara çatdırılmasına imkan yaradılır.

**F. İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan Respublikası Dövlət Neft Fondunda 2016-cı il üzrə Hasilat Sənayesində Şəffaflıq Hesabatının yekun versiyası təqdim edilib.

Dünya Enerji Şurasının 2017-ci il üçün tərtib etdiyi «energetika trilemmasının indeksi»ndə Azərbaycan Cənubi Koreya, Avstraliya, Çin, Rusiya Federasiyası kimi ölkələri geridə qoyaraq, Yaponiyadan sonra 31-ci yerdə qərarlaşıb.

«Azərkosmos» ASC beynəlxalq sertifikasiya üzrə aparıcı qurum sayılan «Bureau Veritas» tərəfindən keçirilən sertifikatlaşdırma auditinin nəticələrinə əsasən İnformasiya Təhlükəsizliyi Standartı - ISO 27001 sertifikatına layiq görülüb.

Ölkə banklarının balansında olan qeyri-işlək aktivlərin idarə edilməsi üzrə hüquqi mexanizmlər yaradılır.

Dekabrın 18-də Bakıda «Maliyyə hesabatlarının hazırlanmasında beynəlxalq və milli standartların tətbiqinin təmin edilməsi» mövzusunda birhəftəlik təlim keçiriləcək.

Azərbaycan və Gürcüstan arasında gömrük prosedurlarına dair bəzi sənədlər yenidən hazırlanacaq.

Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası (ANİİA) və «Bank Silk Way» ASC arasında imzalanmış üçtərəfli anlaşma memorandumuna əsasən, nar və nar məhsulunun dünya bazarında tanıdılması və ixrac miqyasının genişləndirilməsi məqsədilə təbliğat kampaniyası gücləndiriləcək.

# İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000 manatdan 10.000 manatadək** miqdarda cərimə və ya **3 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.<br><br>**3 ildən 7 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Kənd təsərrüfatı elektronlaşdırılır

**2015-ci ildən Azərbaycanda Avropa İttifaqı (Aİ) ölkələrinin tətbiq etdiyi metodika əsasında «e-kənd təsərrüfatı» informasiya sisteminin qurulmasına başlanılmışdır.**

Aİ-nin «İnteqrasiya Olunmuş Nəzarət Sistemi»nin (IACS) prinsiplərinə əsaslanan «e-kənd təsərrüfatı» informasiya sistemi 7 altmoduldan, o cümlədən «Torpaq Sahələrinin İdentifikasiyası», «Fermer Təsərrüfatlarının Reyestri» və «Subsidiyaya Ərizələrin Qeydiyyatı və Təhlili» modullarından ibarətdir.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, «E-kənd təsərrüfatı» informasiya sistemi çərçivəsində müvafiq məlumat bazalarının, o cümlədən aeroşəkillər və peyk təsvirləri əsasında əldə olunan ortofoto xəritələr üzrə elektron məlumat bazalarının yaradılması və idarə olunması üçün zəruri olan informasiya-kommunikasiya texnologiyaları infrastrukturu quraşdırılmışdır. Bu istiqamətdə nazirliyin müvafiq struktur bölmələrinin institusional potensialı formalaşdırılaraq yaradılmış sistemin Xaçmaz, Quba və Göygöl rayonlarında pilot tətbiqinə başlanılmışdır.

Beynəlxalq məsləhətçilər qrupu cəlb edilməklə «Heyvanların identifikasiyası və qeydiyyatı sistemi»nin yaradılması üçün texniki tapşırığın hazırlanmasına başlanılmışdır.

«E-kənd təsərrüfatı» informasiya sisteminin tətbiqi başa çatana qədər hər il subsidiya alan istehsalçılar və onların əkin sahələri ilə bağlı məlumatlar (subsidiya alan istehsalçının fəaliyyət göstərdiyi rayon və kənd, subsidiyaya təqdim olunan əkin sahələrinin ölçüsü və əkin növləri) əsasında elektron məlumat bazası yaradılmışdır.

Bundan əlavə, heyvanların identifikasiyası sisteminin qurulması prosesinə hazırlıq çərçivəsində Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən ölkədə fəaliyyət göstərən bütün təsərrüfatlardakı kənd təsərrüfatı heyvanları ilə bağlı məlumatlar toplanmış və elektron məlumat bazası yaradılmışdır. Ölkə ərazisində qeydiyyata alınmış 66 min vahiddən çox kənd təsərrüfatı texnikası ilə bağlı Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin «Dövlət texniki nəzarət avtomatlaşdırılmış informasiya sistemi»ndə elektron məlumat bazası yaradılmışdır. «Aqrolizinq» ASC-nin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri çərçivəsində bu qurum tərəfindən aparılan müvafiq əməliyyatların elektron-uçot sisteminə keçirilməsi başa çatdırılmış, o cümlədən güzəşt tətbiq edilən texnikalarla bağlı xüsusi proqram təminatı - «Lizinq əməliyyatlarının avtomatlaşdırılması sistemi» hazırlanaraq istifadəyə verilmiş və etibarlı məlumat bazası yaradılmışdır.

MDB ölkələri arasında ilk dəfə Azərbaycanda Aİ təcrübəsinə uyğun «Fermer təsərrüfatları məlumatlarının monitorinqi sistemi» (FTMMS) qurulmuşdur. Birbaşa kənd təsərrüfatı məhsulları istehsalçılarının iqtisadi göstəricilərinin toplanmasını və təhlilini nəzərdə tutan bu monitorinq sistemi aqrar siyasətin nəticələrinin fermer təsərrüfatları səviyyəsində təhlili, istehsalçıların fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, aqrar siyasətin təkmilləşdirilməsi ehtiyaclarının sistemli şəkildə müəyyənləşdirilməsi və digər məsələlər baxımından mühüm informasiya mənbəyi vəzifəsini yerinə yetirir.



Kənd Təsərrüfatı Nazirliyinin FAO ilə birgə həyata keçirdiyi layihə çərçivəsində kənd təsərrüfatı məhsullarının qiymət informasiya portalı (www.azagro.net) yaradılmışdır. Məlumat bazasında 46 adda meyvə, tərəvəz və bostan məhsulunun 400 növü, həmçinin məhsulların iri, orta və xırda ölçülərinə görə hər növün çeşidləri üzrə topdan və pərakəndə satış qiymətləri gündəlik olaraq yenilənir. Hazırda bu informasiya portalının meyvə, tərəvəz və bostan məhsullarının sahədən satış qiymətləri, heyvandarlıq məhsullarının, taxıl məhsullarının, texniki bitkilərin və sənaye təyinatlı digər məhsulların müvafiq qiymət göstəriciləri əsasında təkmilləşdirilməsi aparılır.

İqtisadçı Pərviz Heydərovun sözlərinə görə, aqrar sahədə aparılan islahatlar öz əhatəliliyi və kompleksliliyi ilə diqqəti cəlb edir: «Bir neçə il öncə kənd təsərrüfatının elektronlaşdırılması haqqında danışmaq yersiz görünə bilərdi. Lakin islahatlar dərinləşdikcə bu, tələbata çevrilir. Çünki müasir dövrdə kənd təsərrüfatını elektronlaşdırmadan kənar təsəvvür etmək çətindir. Azərbaycanda bir çox sahələrdə elektronlaşdırma işləri aparılıb və proses davam edir ki, bu da vətəndaşlar üçün xidmətlərin daha da asanlaşması ilə nəticələnir.

«2015-ci ilin Azərbaycan Respublikasında «Kənd təsərrüfatı ili» elan edilməsi ilə bağlı Tədbirlər Planı» kənd təsərrüfatı sahəsində həllini gözləyən bir çox problemlər öz əksini tapmışdı. Ən diqqət çəkən məsələlərdən biri elektron kənd təsərrüfatı sisteminin yaradılması idi. Bundan əvvəl isə Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq təcrübəyə əsaslanmaqla aqrar sektorun dövlət tərəfindən dəstəklənməsində şəffaflığı və hesabatlılığı təmin etmək üçün «elektron kənd təsərrüfatı» informasiya sisteminin üç il müddətində mərhələlərlə yaradılması istiqamətində tədbirlər görməyə başlamışdı.

Ölkədə yeni inşa edilmiş və ən müasir avadanlıqlarla təchiz edilmiş inzibati-laboratoriya binaları, modern maddi-texniki baza, zəruri informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilmiş İT infrastrukturu, habelə beynəlxalq təcrübəyə əsaslanmaqla «Elektron kənd təsərrüfatı» informasiya sisteminin əsas komponentlərinin yaradılması sahəsində mühüm addımlar atılmışdır. Bununla belə, bu istiqamətdə görüləsi işlər də hələ çoxdur».

İqtisadçı ekspert Vüqar Bayramov bildirmişdir ki, elektron kənd təsərrüfatı sisteminin yaradılması iqtisadi islahatlarla bağlı tədbirlər planında əsas hədəflərdəndir. Bu həm də fermerlər üçün yeni informasiya və məlumat bazasının yaradılması deməkdir: «Fermer təsərrüfatları və iş adamları elektron sistemə çıxış imkanları əldə edir, elektron sistemdə bazarlar, onların strukturu, aqrar seqmentlər üzrə təhlillərlə, istehsal olunan məhsulların xərc strukturu ilə tanış olmaq imkanları əldə edirlər. Kənd təsərrüfatı məhsullarının həm topdan, həm də pərakəndə satış qiymətləri ilə bağlı daimi monitorinqlər aparılması nəticəsində də qiymətlərlə bağlı öncədən məlumat əldə etmək mümkündür. Bu, süni qiymət artımlarına qarşı mübarizəni də gücləndirir. Monitorinqlərin nəticəsində xərc bəlli olur ki, bu da mövcud qiymətlərin səviyyəsini aydınlaşdıraraq iş adamlarına süni şəkildə qiymət artımları etməyə imkan vermir və bazarda bir sıra məhsullar üzrə formalaşmış yüksək qiymətlərin aşağı düşməsinə gətirib çıxarır».

**F. İKRAMQIZI**

## 2017-ci ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən

**cari ilin dekabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

• **Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq alqı-satqı müqaviləsini təsdiqləyən notarius tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

• **Muzdlu işlə əlaqədar 2017-ci ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik – növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 4-cü rüb üzrə bəyannaməni yanvar ayının 22-dən gec olmayaraq təqdim edirlər).

• **Xüsusi notariusların 2017-ci ilin noyabr ayı üzrə hesabladığı gəlir vergisi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (4-cü rüb üzrə bəyannamə yanvar ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Azərbaycanda ilk dəfə «Marketinq sammiti» keçiriləcək

İxrac potensialından düzgün istifadə etmək, dövlətin yaratdığı şəraitdən səmərəli yararlanmaq və xarici bazarlarda sağlam mövqe tutmaq hər bir sahibkar üçün çox vacibdir. Bəs bu zaman nələrə diqqət etmək, hansı standartları tətbiq etmək lazımdır? Bundan başqa, ixrac siyasətinin düzgün strateji planlamasının aparılması, marka siyasətinin daha doğru və sağlam qurulması kimi aktual mövzular da meydana gəlməkdədir.

Bütün bunları nəzərə alaraq, dekabrın 23-də Bakıda «AzMarketinq» MMC-nin təşkilatçılığı ilə «Made in Azerbaijan» brendinin inkişafına həsr olunacaq birinci «Marketinq sammiti» təşkil ediləcək. Sammitin məqsədi qlobal marketinq ilə lokal marketinqi sintez edib qlobal effekt yaratmaq, Strateji Yol Xəritəsinin əsas cizgilərinə uyğun olaraq «Made in Azerbaijan» brendinin formalaşdırılması imkanlarının müzakirəsini aparmaqdır.

Sammitdə Azərbaycan və Türkiyədən olan spikerlərin real, praktik mövzular əsasında fikirləri dinləniləcəkdir. 200 nəfərdən çox qonağın iştirakı ilə keçiriləcək birinci «Marketinq sammiti» Azərbaycanda marketinq sektorunda dövlətin ixrac siyasətinə, Strateji Yol Xəritəsinə istiqamətlənmiş ilk layihə kimi tarixə düşəcək və qarşıdakı illərdə də təşkil olunmaqda davam edəcəkdir.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edilkdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,

• ikinci dəfə yol verdikdə **20 faizi**,

• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Aİ elektron ticarətdə tətbiq edilən ƏDV qaydalarını təsdiqləyib

Avropa İttifaqının (Aİ) iqtisadiyyat və maliyyə nazirlərinin təsdiq etdikləri qaydalar mal və xidmətlərin onlayn alınması zamanı əlavə dəyər vergisinin yığılmasının asanlaşdırılmasına şərait yaradır.

Yeni qaydalar əlavə dəyər vergisinin məsafədən qeydiyyata alınması üçün Aİ-nin «vahid pəncərə»sini genişləndirir, quruma daxil olmayan ölkələrdən alınan və qiyməti 150 avrodan artıq əməliyyatlar üçün yeni portal yaradılır. Avropa İttifaqı Şurasının şərhinə görə, bu dəyişiklik hər bir üzv dövlətdəki internet provayderlərinin əlavə dəyər vergisi qeydiyyatından yayınmasının qarşısını almağa imkan verəcək. Aİ-nin açıqladığı statistikada göstərilir ki, yeni qaydalar əsasında yaranan öhdəliklərdən irəli gələrək şirkətlər mal və xidmətləri satdıqları hər bir Aİ ölkəsində 8000 avro xərcləyəcəklər. Bu norma şirkətlərə 2,3 milyard avroya qənaət etməyə şərait yaradacaq və üzv dövlətlərin əlavə dəyər vergisi yığımını ümumilikdə 7 milyard avro artıracaq.

Bundan əlavə, yeni qaydaların izahına əsasən, əlavə dəyər vergisi alıcı ölkədə ödəniləcək və onlayn platformalara onu məsafədə həyata keçirilmiş tranzaksiyalardan tutmağa imkan verəcək. Digər tərəfdənsə, kiçik biznez subyektləri üçün şərtlər sadələşdirilir, startaplar və dəyəri 10 min avrodan az olan transsərhəd əməliyyatları isə əvvəlki kimi yerli qanunvericiliklə tənzimlənəcək.

Nəhayət, sui-istifadənin qarşısının alınması məqsədilə Aİ-dən kənardakı ölkələrdən dəyəri 22 mindən az olan kiçik məbləğli alışlar üçün tətbiq olunan istisna ləğv edilir: Aİ ölkələrindən idxal olunan və əlavə dəyər vergisi tutulmayan malların illik məbləği, bu istisnaya görə, 150 milyon avroya çatır.

Avropa Birliyinin qtisadi və valyuta məsələlərinə məsul şəxs Pyer Moskovisi qeyd etmişdir ki, üzv ölkələrə aid olmayan şirkətlər «Avropa istehlakçılarına həm birbaşa, həm də onlayn platformalar vasitəsilə satışlar üçün güzəştli rejimdən istifadə edə bilməyəcəklər».

## Cənubi Koreya bitkoin üçün vergi tətbiq etmək istəyir

Bu ölkə kriptovalyuta əməliyyatlarının əsas iştirakçılarından biri olduğuna görə, vergitutma məsələlərinə məsul olan dövlət qurumları - Strategiya və Maliyyə Nazirliyi və Vergi Xidməti bitkoindən gələn mənfəətdən, eləcə də onunla aparılan tranzaksiyalardan vergi tutulması imkanlarını nəzərdən keçirir. «Businnes Korea»nın hesabatına əsasən, kriptovalyutanın vergiyə cəlb edilməsi ilə bağlı məsələ «Vergi administrasiyası-2017» Milli Forumunda müzakirə edilmişdir. Kannam Universitetinin professoru Kim Byuinq hökuməti kriptovalyutanın hüquqi statusunu və digər ölkələrdə vergiyə cəlb olunmasının incəliklərini diqqətlə öyrənməyə çağırmışdır: «Əsas prinsip gəlirin vergiyə cəlb edilməsidir. Ona görə də məqbul vergi dərəcəsinin müəyyənləşdirilməsi üçün tranzaksiyanı aparan tərəf barədə məlumatları əldə edə bilmək mühüm əhəmiyyət daşıyır».

## ABŞ offşorlara qarşı mübarizəni gücləndirmək niyyətindədir

Amerika Birləşmiş Ştatları mənfəətlərin ölkəyə qaytarılması barədə qərarı qəbul edən şirkətləri «mükafatlandırmağı» planlaşdırır. Offşor şirkətlərin təşviq edilməsi məqsədilə ölkəyə qayıdanlara aşağı dərəcəli xüsusi vergilər müəyyənləşdirmək nəzərdə tutulur.

Təklif edilən yeni qanunvericilik aləti sahibkarların xaricdə əldə etdikləri mənfəətlərdən on faizlik vergi tutulmasıdır. Prezident Donlad Tramp və Respublikaçılar Partiyasını təmsil edən konqresmenlər hesab edirlər ki, işgüzar dairələri pulları offşorlardan gətirməyə inandırmaqla, ölkə daxilində yeni iş yerlərinin açılması mümkün olacaq. Hazırda qüvvədə olan qanunvericiliyə görə, beynəlxalq gəlirlərdən tutulan vergi 35 faiz təşkil edir ki, bu da dünyada ən yüksək göstəricidir.

Lakin gəlirləri xaricdə saxlamaqla qeyd olunan verginin ödənilməsini təxirə salmaq mümkündür. Bu hüquqi imkandan istifadə edən şirkətlər, faktiki olaraq, öz bizneslərini xarici ölkələrdə aparırlar. 1996-cı ildən bəri ABŞ şirkətlərinin xaricdəki gəlirləri ikiqat artmışdır.

Qeyd edilməlidir ki, bu sahədə əvvəllər də müəyyən cəhdlər göstərilmişdi. 2004-cü ildə konqres belə bir təklif irəli sürmüşdü ki, öz biznesini ölkəyə gətirən şirkətlərə vergi güzəştləri ediləcək. Lakin həmin güzəştlərdən istifadə edənlər az oldu, nəticədə dövlət xəzinəsinə xaricdəki 321 milyard dollar həcmində gəlirlərin cəmi 5,25 faizi qaytarıldı.

## «Gucci» vergi ödəməkdən yayınır?

İtaliyanın vergi polisi dünyada tanınmış transmilli moda şirkəti olan «Gucci»nin fəaliyyəti ilə bağlı təhqiqat aparır: şirkət vergi ödəməkdən yayınmaqda şübhəli bilinir. Vaxtilə şirkətdə yüksək vəzifə tutmuş keçmiş əməkdaşlardan birinin sözlərinə görə, «Gucci»nin Fransanın «Kering» qrupuna daxil olan dəbdəbəli geyimlər sektoru İtaliyada aparılmış satış əməliyyatlarına aid vergi bəyannaməsini İsveçrədə vermişdir və bununla 1,3 milyard avro qənaət etmişdir. Şirkət isə öz əməliyyatlarının şəffaflığına əmindir və təhqiqatın aparılması zamanı səlahiyyətli orqanlarla hərtərəfli əməkdaşlıq etməyə hazırdır.

Xatırladaq ki, dörd il əvvəl İtaliyanın daha bir moda brendi - «Prada» vergidən yayındığına görə ölkə xəzinəsinə 470 milyon avro cərimə ödəməli olmuşdu.

## Fransada iri korporasiyalardan əlavə vergi tutmağa icazə verildi



Ölkənin Konstitusiya Məhkəməsi iri şirkətlərdən müvəqqəti şəkildə əlavə vergi tutulması barədə parlamentin qəbul etdiyi qanunun ölkə Konstitusiyasına zidd olmadığı barədə qərar qəbul etmişdir. Parlament üzvləri müvafiq tədbirlərin həyata keçirilməsi üsulları, eləcə də bu verginin özünün qanuni olub-olmaması barədə tərəddüd etdiklərinə görə, Konstitusiya Məhkəməsi nəzərdə tutulan verginin qanunauyğunluğu barədə məsələyə baxmışdır. Məhkəmənin qərarında deyilir ki, nəzərdə tutulan vergi Fransa dövlətinin Konstitusiyasına uyğundur.

2017-ci il noyabrın 14-də parlamentin vergi qanunvericiliyinə etdiyi dəyişikliyə əsasən, korporativ verginin dərəcəsi illik dövriyyəsi 1 milyard avrodan artıq olan şirkətlər üçün 33,3 faizdən 38,3 faizə, illik dövriyyəsi 3 milyard avrodan artıq olan şirkətlər üçünsə 43,3 faizə qaldırılmışdır.

Müvəqqəti vergi əlavəsi 2017-ci il dekabrın 31-dən 2018-ci il dekabrın 30-dək tətbiq ediləcək. Nəticədə büdcəyə əlavə 5 milyard avro vəsait daxil olacağı gözlənilir ki, xərclərin azaldılması ilə birlikdə bunun 2017-ci ildəki 2,9 faizlik büdcə kəsirinin aradan qaldırılmasının mümkün olacağı bildirilir.

Bundan başqa, hökumət şirkətlərdən qanunsuz tutulmuş gəlir vergisinin qaytarılması üçün Konstitusiya Məhkəməsinin qərarına uyğun olaraq, 10 milyard avro vəsaiti geri ödəməlidir.

## Yaponiya yüksək məvacib alanlardan tutulan vergini artırmağı planlaşdırır

Hökumət dairələrində illik qazancı 8 milyon yendən (təxminən 72 min ABŞ dolları) artıq olan korporativ əməkdaşlardan tutulan vergilərin artırılması üçün hazırlıq görülür. Bu tədbirə əl atılması 2018-ci ildə fiskal islahatın həyata keçirilməsi üçün əməkhaqqından çıxılmalara yenidən baxılması çərçivəsində baş verir. Məsul şəxslər əmin edirlər ki, vergilərin gözlənilən artımı kiçik uşaqları olan ailələrə şamil olunmayacaq. Göstərilən verginin artımı ilə bərabər, gələn ildən illik pensiyasının məbləği 10 milyon yendən (90 min ABŞ dolları) artıq olan təqaüdçülərdən tututlan vergidə də artım olacağı ehtimal edilir.

Rəsmi dairələrin hesablamasına əsasən, nəzərdə tutulan dəyişiklik dövlətin xəzinəsinə 100 milyard yen (9 milyard ABŞ dolları) əlavə vəsait daxil olmasına şərait yaradacaq.

## Avropa İttifaqı vergi limanlarının «qara siyahı»sını təsdiqləyib

Avropa İttifaqı (Aİ) öz internet saytında zəruri maliyyə şəffaflığına malik olmayan ölkələrin siyahısını açıqlamışdır. Bu ölkələrin adları vergidən yayınmaya, eləcə də digər fırıldaqçılıq fəaliyyətlərinə və qanunsuzluqlara şərait yaratmaqda hallandırılır. «Qara siyahı» Birliyə daxil olan ölkələrin maliyyə nazirlərinin iclasından dərhal sonra nəşr edilmişdir.

Siyahıda maliyyə əməliyyatlarının qanuniliyi ilə bağlı Aİ tərəfindən hazırlanmış meyarlar əsasında dialoqa daxil olmayan, həmçinin aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün zəruri səyləri göstərməyən ölkələr barədə məlumata da yer verilmişdir. «Aİ ilə əməkdaşlıq etməyən» yurisdiksiyaların siyahısına 17 ərazinin və ölkənin adı daxil edilmişdir ki, buraya Bəhreyn, Barbados, Samoa, Quam, Koreya, Monqolustan, Qrenada, Marşall adaları, Panama, Trinidad və Tobaqo, Tunis, Namibiya, Birləşmiş Ərəb Əmirlikləri və digərləri aiddir.

Siyahıda adları olan yurisdiksiyaların əksəriyyətində güzəştli vergi rejimləri tətbiq olunur və onlar 2018-ci ilin sonuna qədər bu güzəştləri ləğv etmək və ya dəyişdirmək niyyətində deyillər. Bundan əlavə, həmin ölkələr və ərazilər gəlirlərin yerinin dəyişdirilməsinin və vergi bazasının «yuyulmasının» qarşısının alınması üçün hər hansı təsirli tədbir görmürlər. Bütün bu məlumatlar Aİnin açıqlamasında verilmişdir.

Vergi sistemi şəffaf olmayan ölkələrin hamısına bu ilin oktyabr ayında məktub göndərilərək rəsmi müraciət edilmişdi. Həmin ölkələrin əksəriyyəti beynəlxalq vergi qanunsuzluqlarına qarşı mübarizəyə sadiq olduqları barədə güclü siyasi iradə göstərəcəklərini bildirmişdilər və bununla da «qara siyahı»dan kənarlaşdırılmışdılar. Buna baxmayaraq, onların fəaliyyəti Aİ-nin ciddi nəzarəti altındadır, irəliləyişlər izlənəcək və qeydiyyata alınacaq.

Hazırda Avropa İttifaqı Şurasına sədrlik edən Estoniyanın maliyyə naziri T.Tınistenin bildirdiyinə görə, bu proses müntəzəm səciyyə daşıyır, siyahı monitorinqin gedişində əldə edilmiş məlumatlar əsasında daim yenilənəcək. Aİ-nin məqsədi isə savadlı vergi idarəetməsinin yeni normaya çevrilməsinə nail olmaqdır.



krossvord

**Yuxarıdan aşağı:** 1.Azərbaycan opera müğənnisi (lirik-dramatik tenor), mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı; 2.Uzaq Şərqdə çay; 3.İnad, təkid; 4.Ağ yundan və kətandan hazırlanmış qədim Roma geyimi; 5.İsveçrədə dairə; 6.Futbol və voleybolda mühafizə funksiyasını yerinə yetirən, güc və təmkin tələb edən oyunçu mövqeyi; 9.Fransanın cənub-şərqində şəhər; 13.İngiltərədə qraflıq; 15.Karbonatlar sinfinə aid süxur (mineral); 16.Məscidlərin qiblə tərəfindəki divarında namaz qılarkən pişnamazın və onun ardınca başqa namaz qılanların üzlərini çevirdikləri yer; 17.Müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; 18.Alyaska ərazisinə ekspedisiya təşkil etmiş ilk səyyahlardan hesab olunur. Gəmilərlə səfərə çıxarkən Alyaska yaxınlığında yerləşən adada vəfat edib, sonradan ada onun adı ilə adlandırılıb; 20.Hər hansı aktivin pul ilə ifadə olunmuş qiyməti; 21.Fransız təbiətşünası, naturalist, paleontologiya elminin və müasir müqayisəli anatomiyanın atası hesab olunan alim.

**Soldan sağa:** 1.Böyük Britaniyada ali hüquqşünas kateqoriyası; 5.Azərbaycanda düzənlik ərazi; 7.Çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük bina, tikili; 8.Birja bağlandıqdan, alqı-satqı sessiyaları qurtardıqdan sonra aparılan ticarət əməliyyatları; 10.Qadın adı; 11.Qədim yunan mifologiyası obrazlarından biri; 12.Antarktidada ən uzun çay, həmçinin mineral adı; 14.Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə; 19.Monqolustanda şəhər; 21.Belçika riyaziyyatçısı, astronomu, meteoroloq və sosioloqun adı. Elmi statistikanın banisi; 22.Yuxu; 23.Kişi adı; 24.Kimyəvi element; 25.Almaniya parlamenti.



*Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə. Natürmort. Klod Mone, 1867*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Atabəy; 2.Şturval; 3.Ratin; 4.Nekkar; 5.Kolli; 6.Dollar; 9.Qulu *(Əsgərov)*; 13.İzba; 15.Kriolit; 16.Skelet; 17.Mikrob; 18.Təkrar; 20.Limon; 21.Qoyya *(Fransisko)*. **Soldan sağa:** 1.Apşeronsk; 5.Kud; 7.Akustika; 8.Alol; 10.Əlvan; 11.Apuliya; 12.Elçin *(Əzizov)*; 14.Bulka; 19.Kolibri; 21.Qaimə; 22.Lama; 23.Kraysler; 24.Ton; 25.Gibraltar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# «Tour d'Azerbaidjan-2018»in keçiriləcəyi vaxt məlum olub




Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2018» veloturunun keçirilmə vaxtı müəyyənləşib. Gələn il mayın 9-13-də planetin ən güclü şose velosiped komandaları yenidən Azərbaycanda mübarizə aparacaqlar. Beş günlük yarış artıq Beynəlxalq Velosipedçilər İttifaqının 2018-ci il üçün müəyyənləşdirdiyi təqvim planına da daxil edilib.

«Tour d'Azerbaidjan-2018» şose velosipedi üzrə gələn ilin mayında keçiriləcək yeganə yarış olmayacaq - sözügedən veloturda iştirak etmək üçün Azərbaycana gələcək komandalar mayın 8-də birgünlük «Bakı-Xızı Eko» turunda da yarışacaqlar. Beynəlxalq Velosipedçilər İttifaqının kifayət qədər yüksək səviyyəli yarışı hesab edilən 1.1 kateqoriyalı velotur da artıq qurumun təqvim planında yer alır.

Xatırladaq ki, şose velosipedi üzrə gələn ilin mayında keçiriləcək bu iki yarışdan əlavə, iyunun 5-9-da Bakıda velosiped idmanının BMX növü üzrə (Olimpiya idman növü) dünya çempionatı da təşkil olunacaq.

# Güləş üzrə Azərbaycan çempionatına start verilir




Dekabrın 14-18-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında növbəti Azərbaycan çempionatı keçiriləcək.

Gənclər və İdman Nazirliyi və Azərbaycan Güləş Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək yarışlarda 18 yaşı tamam olmuş, 1999-cu il və yuxarı təvəllüdlü idmançılar iştirak edə bilərlər. Şəxsi xarakter daşıyan yarışlarda idman cəmiyyətləri, idman klubları, idman təşkilatları, şəhər və rayon yığma komandalarının güləşçiləri mübarizə aparacaqlar.

Dünya Güləş Birliyinin qaydalarına uyğun keçiriləcək yarışlar Azərbaycan Güləş Federasiyası Hakimlər Kollegiyasının təyin etdiyi hakimlər tərəfindən idarə olunacaq. Sərbəst güləşçilər 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq-ya, yunan-Roma güləşçiləri isə 55, 60, 63, 67, 72, 77, 82, 87, 97 və 130 kq-ya qədər çəki dərəcələrində qüvvələrini sınayacaqlar.

Çempionat bu il yeniyetmə güləşçilərin qitə və dünya birinciliklərində sınaqdan keçirilən və 2 günlük yarış proqramı üzrə təklif olunan yeni qaydalara uyğun təşkil olunacaq. Belə ki, yarışlardan bir gün öncə püşkatma mərasimi, ilk yarış günündə ilkin və təsəllüverici görüşlər, ikinci yarış günündə isə final görüşləri keçiriləcək. Əvvəllər bir gün öncə baş tutan çəki mərasimi bundan sonra yarış günləri keçiriləcək və finala vəsiqə qazanmış idmançılar iki dəfə çəki prosesinə cəlb olunacaq. İkinci dəfə tərəziyə çıxan idmançılara normadan 2 kiloqramadək artıq çəkidə güləşməyə icazə veriləcək.

Çəki dərəcələri üzrə ilk 3 yeri tutmuş güləşçilər ölkənin yığma komandasına cəlb ediləcək və il ərzində komandanın qatılacağı beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək hüququ qazanacaqlar.

# UEFA Çempionlar Liqasının və Avropa Liqasının püşkü atıldı




Dekabrın 11-də UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında futbol üzrə UEFA Çempionlar Liqasının və Avropa Liqasının növbəti mərhələsinin püşkü atılıb.

***Çempionlar Liqasının səkkizdəbir final görüşlərində üz-üzə gələcək komandalar:***

«Yuventus» (İtaliya) - «Tottenhem» (İngiltərə); «Bazel» (İsveçrə) - «Mançester Siti» (İngiltərə); «Porto» (Portuqaliya) - «Liverpul» (İngiltərə); «Sevilya» (İspaniya) - «Mançester Yunayted» (İngiltərə); «Real» (İspaniya) - PSJ (Fransa); «Şaxtyor» (Ukrayna) - «Roma» (İtaliya); «Çelsi» (İngiltərə) - «Barselona» (İspaniya); «Bavariya» (Almaniya) - «Beşiktaş» (Türkiyə).

İlk görüşlər gələn il fevralın 13-14-də və 20-21-də, cavab matçları isə martın 6-7-də və 13-14-də təşkil olunacaq.

***Avropa Liqasının onaltıdabir mərhələsində qarşılaşacaq komandalar:***

«Borussiya» (Dortmund, Almaniya) - «Atalanta» (İtaliya); «Nitsa» (Fransa) - «Lokomotiv» (Moskva, Rusiya); «Kohenhagen» (Danimarka) - «Atletiko» (Madrid, İspaniya); «Spartak» (Moskva, Rusiya) - «Atletik» (Bilbao, İspaniya); «AEK» (Afina, Yunanıstan) - «Dinamo» (Kiyev, Ukrayna); «Seltik» (Şotlandiya) - «Zenit» (Rusiya); «Napoli» (İtaliya) - «Leyptsiq» (Almaniya); «Srvena Zvezda» (Serbiya) - «MOİK» (Moskva, Rusiya); «Lion» (Fransa) - «Vilyarreal» (İspaniya); «Real Sosyedad» (İspaniya) - «Zalsburq» (Avstriya); «Partizan»




(Serbiya) - «Viktoriya» (Plzen, Çexiya); «Styaua» (Rumıniya) - «Latsio» (İtaliya); «Lüdoqorets» (Bolqarıstan) - «Milan» (İtaliya); «Astana» (Qazaxıstan) - «Sportinq» (Portuqaliya); «Ostersun» (İsveç) - «Arsenal» (İngiltərə); «Marsel» (Fransa) - «Braqa» (Portuqaliya).

Bu mərhələnin ilk oyunları gələn il fevralın 15-də, cavab matçları isə 22-də keçiriləcək.

# İntellektli idmançılar bir arada...

Dekabrın 11-də Çin Xalq Respublikasının Huayan şəhərində II Dünya İntellektual Oyunlarına start verilib. Azərbaycanı kişi şahmatçıların turnirində Şəhriyar Məmmədyarov və Rauf Məmmədov təmsil edirlər.

Şahmat turnirində yarışlar üç növdə təşkil olunacaq. Proqramın ilk növü rapid olub. Kişi şahmatçıların yarışında 4,5 bal toplayan rusiyalı Dmitri Andreykin qalib olub. Azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov və vyetnamlı Le Kuanq Lyem eyni xal toplasalar da, əlavə göstəricilər nəzərə alınaraq, təmsilçimiz gümüş medala layiq görülüb. Rauf Məmmədov isə 12-ci yerlə kifayətlənib. Proqramın digər iki növü blits və bask şahmatı olacaq. Bask şahmatında rəqiblər iki şahmat taxtası üzərində eyni zamanda mübarizə aparırlar.

Xatırladaq ki, Dünya İntellektual Oyunları 2008-ci ildən bəri Çində keçirilir. Bu illər ərzində beş növ üzrə yarışlarda qazanılan medalların sayına görə hərəyə 7 medal qazanan ufalı Aleksandr Georgiyev və Tamara Tansıkkujina rekordçudurlar.

## mozaika

texnologiya




# Səsdən iti

Yaponiyanın «Japan Airlines» (JAL) aviaşirkəti səsdən iti təyyarənin hazırlanması üçün ABŞ şirkətlərindən birinə 10 milyon dollar vəsait ayırmağı planlaşdırır. «Boom Technology» şirkəti səsin sürətini təqribən iki dəfə üstələyəcək təyyarənin hazırlaması üzərində işləyir. Bu aparatın saatda 2300 kilometr sürətlə uçacağı bildirilir.

Təyyarənin Tokiodan San-Fransiskoya qədər olan məsafəni iki dəfə azaldaraq 5 saat yarıma qət edəcəyi gözlənilir. Həmin startap şirkətinin təyyarələrin kommersiya istifadəsinə 2023-cü ildə başlayacağı bildirilir.

«JAL» şirkətindən verilən məlumata görə, şirkət artıq 20 təyyarənin sifariş hüququnu əldə edib. Səsdən iti təyyarənin nə zaman və hansı marşrutlarda istifadə olunacağı, təyyarənin təhlükəsizliyi və yaradacağı səs həddinin azalması ilə bağlı tədbirlər təsdiq edildikdən sonra dəqiqləşdiriləcək.

# Nəqliyyatdan istifadə asanlaşacaq

Yaponiyanın tanınmış «Mitsubishi Electric» şirkətinin yeni texnologiyası sayəsində sərnişinlər ictimai nəqliyyatdan daha rahat istifadə edə biləcəklər. Yeni texnologiyalar əsasən dəmir yolunda istifadə olunacaq. Həmin texnologiyalardan biri platformaya keçid üçün bilet terminallarının ləğv edilməsidir. Bu zaman sərnişinlərin nəqliyyat kartlarındakı məlumat stansiyanın döşəməsinə bərkidilən sistemə ötürüləcək. Bundan sonra sərnişinlər heç bir maneə ilə rastlaşmadan platformaya keçə biləcəklər.

Şirkət nümayəndələrinin bildirdiyinə görə, videomüşahidə kameralarındakı süni intellekt texnologiyası vaqona minmək və ya düşmək istəyən sərnişinləri də seçməyə imkan yaradacaq.

Mühəndislər ümid edirlər ki, stansiyalarda və qatarlarda yeni texnologiyaların tətbiqinə 2025-ci ildə başlanacaq.

ixtira

# Unikal tibbi skaner

Rusiyalı alimlər real vaxt rejimində dərinin üst qatlarında qanın mikrosirkulyasiyası prosesini vizuallaşdırmaq üçün «LaserMicroVision» cihazını hazırlayıblar. Buna bənzər avadanlıq yalnız İsveçrədə var. Lakin onun böyük ölçüləri istifadə imkanlarını məhdudlaşdırır.



Yeni qurğu patologiyaların səbəblərini aşkarlayır və zədələnmə zonalarını müəyyən edir. Lazer şüası dərinin iki millimetrə qədər dərinliyinə nüfuz edərək eritrositlərin hərəkət sürətini kontaktsız üsulla hesablamağa imkan verir. Lazer şüasının dəriyə belə təsiri zərərsizdir və xəstə onu hiss etmir.

«Qurğunu bir ildən çoxdur ki, hazırlamışıq. İndi işin tamamlanması və konkret kliniki vəziyyətlər üçün ixtisaslaşdırılmış proqram təminatının yazılması ilə məşğuluq», - deyə layihənin eksperti Andrey Fomin bildirib.

İstehsalçıların sözlərinə görə, cihazdan tibbin xüsusi tədqiqatların keçirilməsini tələb edən istənilən sahəsində (onkologiya, dermatologiya, travmatologiya, plastik və rekonstruktiv cərrahiyyə) istifadə etmək olar.

mədəniyyət

# Azərbaycan kamançası dünyada tanıdılır

Koreya Respublikasının Jeju adasında keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında Azərbaycan Respublikasının və İran İslam Respublikasının birgə təqdim etdiyi «Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti» UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.



Ölkəmizin UNESCO yanında daimi nümayəndəsi, səfir Anar Kərimov kamança sənətinin Azərbaycan mədəniyyətində mərkəzi rollardan birini oynadığını qeyd edib. Bu sənət növünün ölkəmizin sərhədlərindən daha geniş coğrafiyanı əhatə etdiyini yüzilliklər boyu nəsillərdən nəslə ötürülən mədəni mənsubiyyət nümunəsi olduğunu diqqətə çatdırıb və nominasiya faylının birgə verilməsində göstərilən dəstəyə görə İran tərəfinə minnətdarlığını bildirib. O, eyni zamanda, Azərbaycan hökuməti adından UNESCO Qiymətləndirmə Orqanına və Komitəyə xalqımızın mədəni dəyəri olan bu sənət nümunəsinin dəstəklədiklərinə görə təşəkkürünü bildirib.

cəmiyyət

# Olimpiadada texniki yeniliklər təqdim olunacaq

2018-ci ilin fevralında Koreya Respublikasının Pxençxan şəhərində Qış Olimpiya Oyunları keçiriləcək. Tədbirin təşkili üçün 2 milyard dollar xərclənib. Koreya ölkəyə gələcək turistləri və tamaşaçıları, ilk növbədə, texniki yeniliklərlə təəccübləndirməyi planlaşdırır. Olimpiadada sürücüsüz avtobuslar işləyəcək. Bu avtobusların daxilində şüşələrin əvəzinə böyük ekranlar quraşdırılıb. Pəncərədən mənzərəyə baxmaq mümkün olacaq. Lakin rəncərənin şüşələri, faktiki olaraq, böyük planşetlərdir. Sərnişin bu ekranlar vasitəsilə olduğu yeri dəqiqləşdirə, xəbərləri və ya yarışmanı izləyə bilər.

Oyunlar zamanı yalnız insanlar deyil, robotlar da təhlükəsizliyi təmin edəcək. Onlar pilləkənlə irəliləyə, avtomobili idarə edə, qapıları aça, həmçinin insanları səs və zahiri görünüşünə görə tanıya bilir. Koreyanın hər yerində virtual reallıq olacaq. Eyni zamanda 32 idman növü virtual reallıqda göstəriləcək. Həmçinin Koreya dilini bilməyənlər üçün dil baryerini məhv edəcək «GenieTalk» proqramı istifadəyə veriləcək. Koreya, ingilis, yapon, rus, ərəb və alman dillərini dəstəkləyən proqramın bazasında hər dildə 100-dən 800 minədək söz var.

Olimpiadada yüksəksürətli internet əlyetərli olacaq. Belə ki, ölkənin əsas provayderi «KT Corporation» 5G texnologiyasını sınaqdan keçirir. Bu, LTE-dən min dəfə daha sürətlidir. Məhz yüksəksürətli internet VR-translyasiyaların və idman yarışlarının yüksək dəqiqliklə nümayişini təşkil etməyə imkan verəcək.

tədqiqat

# Ucadan kitab oxumaq yaddaşı gücləndirir

Kanadanın Vaterloo Universitetinin psixoloqları və neyrofizioloqları yaddaşın yaxşılaşdırılması ilə ucadan mətn oxumaq arasındakı əlaqəni tədqiq ediblər. Bu cür kitab oxumaq eyni zamanda mətnin daha yaxşı mənimsənilməsinə də kömək edir. Hündürdən oxumağın effektivliyi şagirdlərə və tələbələrə artıq bəllidir. Bu, onlara lazımi məlumatı daha yaxşı yadda saxlamağa kömək edir.

Alimlər bu prosesin nə cür baş verdiyini öyrənməyə çalışıblar. Bu məqsədlə dörd qrupdan ibarət 95 könüllünün iştirakı ilə eksperiment aparılıb. Bir qrupun nümayəndələri mətni səssiz oxuyublar, ikinci qrup eyni yazını səsli variantını dinləyib, üçüncü qrupun təmsilçiləri həmin mətni səsli oxuyub, dördüncü qrup isə oxuduqları mətnin sonradan səsli variantını dinləyib. İştirakçılar arasında yazını ən yaxşı yadda saxlayan üçüncü qrupun nümayəndələri olub.

Tədqiqatlardan bəlli olub ki, insan öz səsini daha yaxşı yadda saxlayır. Yəni, insan beyni öz səsi ilə tələffüz olunaraq yadda saxladığı mətnə assosiasiya doğurur. Alimlərin fikrincə, aparılan araşdırma yaşlı insanlarda yaddaşın möhkəmləndirilməsinə kömək etmək və ya itirilməsinin qarşısının alınması baxımından çox faydalıdır.

**Müdriklər deyib ki...**



*«Hamıdan öyrənin, ancaq heç kəsi təqlid etməyin».*

*Maksim Qorki (1868-1936)*